YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

28 noyabr
2026-cı il,
şənbə
№ 218 (7285)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

A.S. (Ante Skriptum)

Heydər Əliyev:

Sayca dünyanın ən iri millətləri ilə müqayisə olunan xalqımızı yeni yüzillik və minillikdə ciddi və müqəddəs mübarizələr gözləyir.

Azərbaycanın geostrateji siyasi xəttində Avropa İttifaqı...



Tərəfdaşlıqlar milli maraqlara əsaslanan çoxşaxəli əməkdaşlığı əhatə edir

Bax səh. 3

Bakı-Tallin: yeni bağlantı xətlərinin sayı artır

Bax səh. 2



Zəngəzur dəhlizi Trans-Avropa Nəqliyyat Şəbəkəsinə daxil edilir

Bax səh. 2

Münasibətlərin inkişafında mühüm mərhələ

Bax səh. 2

“Sülh körpüsü” təşəbbüsü üzrə 5-ci görüş...

Bax səh. 5

Ana təbiətin qorunmasına davamlı qayğı

Bax səh. 5

SOCAR-dan yeni Anlaşma Memorandumu

Bax səh. 6

Tbilisinin Avropa dilemması: Gürcüstan Brüsseldən uzaqlaşır, yoxsa siyasi kursunu dəyişir?

Bax səh. 7

Gürcüstandan Avropa Parlamentinə açıq dialoq çağırışı

Bax səh. 6

Alen Simonyan Azərbaycana niyə gəlir?

Bax səh. 6

Bakı-Tallin: yeni bağlantı xətlərinin sayı artır

Prezident İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə Estoniyanın xarici işlər nazirinin ötən il Bakıdakı görüşü məmnunluqla xatırlandı.

Azərbaycanla Estoniya arasında münasibətlərin dinamik şəkildə genişləndiyini deyən Prezident İlham Əliyev hökumət nümayəndələri arasında görüşlərin keçirilməsinin yaxşı nəticələr verəcəyinə ümidvarlığını bildirdi, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafı baxımından roluna toxundu və əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı münasibətlərinin də uğurla inkişaf etdiyini dedi, bu il Avropa İttifaqı rəhbərliyinin ölkəmizə səfərlərini və Dublin Sammiti çərçivəsində keçirilmiş görüşləri xatırladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlığın irəli aparılması üçün məsələləri müzakirə etmək baxımından Estoniyanın xarici işlər nazirinin səfərinin uğurlu olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən Marqus Tsahkna Azərbaycanın sürətli inkişafının şəxsən şahidi olduğunu dedi, ölkəmizin regionda önəmli rol oynadığını vurğuladı.

Münasibətlərimizin yaxşı səviyyədə olduğunu qeyd edən nazir ölkəmizə səfəri çərçivəsində Estoniyanın Azərbaycandakı səfirliyinin rəsmən açılacağını bildirdi və ikitərəfli münasibətlərimizin inkişafı baxımından bu hadisənin önəminə toxundu.



Dövlətimizin başçısı Bakıda Estoniya səfirliyinin rəsmən açılmasının əlaqələrimizin inkişafının göstəricisi kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Estoniya arasında informasiya texnologiyaları, rəqəmsal transformasiya, bağlantılar və digər istiqamətlərdə əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu, ölkəmizin yeni bağlantı xətlərinin sayını artırdığı vurğulandı.

Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Münasibətlərin inkişafında mühüm mərhələ

Estoniyanın Azərbaycanda səfirliyi açılıb

Noyabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Estoniyanın xarici işlər naziri Marqus Tsahkna ilə görüşüb. Görüş zamanı nazirlər Azərbaycan-Estoniya münasibətlərinin hazırkı vəziyyəti, ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi perspektivləri, eləcə də əsas regional və beynəlxalq proseslər ətrafında hərtərəfli müzakirələr aparıblar. Nazirlər ikitərəfli təmasların və qarşılıqlı səfərlərin intensivləşməsini alqışlayaraq, siyasi dialoqun gücləndirilməsinin, Xarici İşlər nazirlikləri arasında müntəzəm siyasi və konsulluq məsləhətləşmələrinin davam etdirilməsinin, eləcə də parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıblar.

C.Bayramov estoniyalı həmkarını Estoniyanın Azərbaycanda səfirliyinin təsis edilməsi münasibətilə təbrik edərək, onun fəaliyyətə başlamasının ikitərəfli münasibətlərin möhkəmləndirilməsinə, siyasi dialoqun genişləndirilməsinə və əməkdaşlığın institusional əsaslarının gücləndirilməsinə töhfə verəcəyini qeyd edib.

Görüşdə ticarət və iqtisadi əməkdaşlığın genişləndirilməsinə də xüsusi diqqət yetirilib. Nazirlər noyabrın 4-də keçirilmiş Azərbaycan-Estoniya Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasının əhəmiyyətini vurğulayaraq, növbəti iclasın yeni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün əlavə imkanlar yaradacağını qeyd ediblər. Həmçinin nəqliyyat, rəqəmsallaşma, təhsil və digər sahələrdə əməkdaşlığın gücləndirilməsi perspektivləri nəzərdən keçirilib.

C.Bayramov həmkarını Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, regionda baş verən son hadisələr və sülh gündəliyinin irəli aparılması istiqamətində atılan addımlar barədə məlumatlandırıb. O, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasının təmin edilməsinə yönəlmiş tədbirlər, eləcə də minaların yaratdığı humanitar çətinliklər barədə qarşı tərəfə məlumat verib.

XİN başçıları görüşüb



Nazirlər beynəlxalq təşkilatlar və çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran digər əsas məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Görüşün yekununda nazirlərin mətbuat konfransı keçirilib və media nümayəndələrinin sualları cavablandırılıb.

C.Bayramov bildirib ki, ölkələrimiz arasında münasibətlər hər zaman çox müsbət müstəvidə inkişaf edib. Lakin son dövrdə biz bu münasibətlərdə çox ciddi dinamika müşahidə edirik. Bu, Azərbaycan-Estoniya əlaqələrinin inkişafı baxımından olduqca müsbət haldır. "Ölkələrimiz arasında müqavilə-hüquq bazasına gəldikdə, hazırda 16 sənəd mövcuddur, daha 8 sənəd üzərində isə işlər davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə həmin sənədlərin qüvvəyə minməsinin şahidi olacağıq. Hazırda ticarət dövriyyəsi ilə bağlı göstəriciləri qənaətbəxş hesab edə bilmərik. Ötən il ticarət dövriyyəsi təqribən 32 milyon ABŞ dolları təşkil edib. Estoniyadan Azərbaycana 25 milyon ABŞ dolları həcmində investisiyaların yatırıldığının şahidi olmuşuq. 72 Estoniya şirkəti Azərbaycanda fəaliyyət göstərir, onlardan 48-i aktiv fəaliyyətdədir", - deyə nazir qeyd edib.

Ötən il ticarət dövriyyəsi 32 milyon dollar təşkil edib

C.Bayramov: ATƏT-ə sədrliklə bağlı konsensus əldə edilməyib

C.Bayramov Azərbaycanın ATƏT sədrliyinə namizədliyi ilə bağlı sualı da cavablandırıb. Onun sözlərinə görə, ATƏT-in hazırkı fəaliyyətdə olan sədri İsveçrədir və onun səlahiyyət müddəti dekabrın 31-də başa çatır: "Bir ildən artıqdır ki, növbəti sədrin müəyyənləşdirilməsi ilə bağlı müzakirələr aparılsa da, üzv dövlətlər arasında konsensus əldə etmək mümkün olmayıb". Nazir diqqətə çatdırıb ki, Azərbaycan bu müddət ərzində konsensusun təmin olunmasına töhfə verməyə və dialoqa hazır olduğunu bəyan edib. Son həftələrdə intensivləşən məsləhətləşmələr zamanı Azərbaycanın da növbəti sədrliyə namizədliyi irəli sürülüb və ölkəmizə bu təkliflə bağlı müraciət olunub. "Müzakirələr çərçivəsində 2027, 2028 və 2029-cu illər üzrə sədr ölkələrin vahid paket şəklində müəyyənləşdirilməsi təklifi də irəli sürülüb. İlkin paket təklifi Azərbaycan tərəfindən təqdim edilib, sonradan bu təklifə Ermənistanın da daxil edilməsi məsələsi gündəmə gəlib. Azərbaycan yaranmış vəziyyəti nəzərə alaraq, konsensusun əldə olunmasına müsbət töhfə verməyə hazır olduğunu bildirib. Hazırda məsləhətləşmələr davam edir və yekun nəticə barədə əvvəlcədən proqnoz vermək mümkün deyil" - deyə, o vurğulayıb.

M.Tsahkna: Azərbaycandan öyrənəcəyimiz çox şey var

Estoniyanın xarici işlər naziri Marqus Tsahkna isə ölkələrimizin uzunmüddətli əməkdaşlığına ümid etdiyini söyləyib: "Səfirliyin açılması uzunmüddətli məsələdir və düşünülmüş qərardır. Biz qərara gəldik ki, münasibətləri daha da inkişaf etdirək". "Regionda baş verən proseslər fonunda Azərbaycandan sabitliyin necə təmin olunması ilə bağlı öyrənəcəyimiz çox şey var" - deyə, o vurğulayıb. Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin inkişafı üçün böyük perspektivlərin olduğunu deyən nazir, Avropa İttifaqının Azərbaycanla əməkdaşlıq etmək istəyində olduğunu da diqqətə çatdırıb.

Qeyd edək ki, dünən Estoniyanın Azərbaycandakı səfirliyinin rəsmi açılış mərasimi keçirilib. Hər iki ölkənin XİN başçısı mərasimdə iştirak ediblər. Nazirlər Estoniyanın Bakıda rezident diplomatik nümayəndəliyinin fəaliyyətə başlamasını alqışlayaraq, bunun münasibətlərin inkişafında mühüm mərhələ kimi dəyərləndiriblər.

Nardar BAYRAMLI

Zəngəzur dəhlizi Trans-Avropa Nəqliyyat Şəbəkəsinə daxil edilir

Azərbaycan və Avropa İttifaqının Yüksək Səviyyəli Nəqliyyat Dialoqunda logistika imkanları müzakirə olunub

Bakıda Azərbaycan Respublikası və Avropa İttifaqı (Aİ) arasında Yüksək Səviyyəli Nəqliyyat Dialoqunun üçüncü iclası keçirilib. Tədbirdə Azərbaycan və Aİ arasında nəqliyyat sahəsində əməkdaşlığın prioritet istiqamətləri, regional nəqliyyat bağlantılarının inkişafı, infrastruktur layihələri müzakirə olunub. Tərəflər Orta Dəhlizin inkişafı üzrə Aİnin maliyyə və investisiya alətlərindən istifadə imkanları, Naxçıvanın nəqliyyat infrastrukturunun inkişafına qurumun mümkün dəstəyi, Zəngəzur dəhlizinin Trans-Avropa Nəqliyyat Şəbəkəsinə (TEN-T) daxil edilməsi, Avropa logistika şirkətlərinin Orta Dəhlizdən istifadəsinin təşviqi məsələləri nəzərdən keçirib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, bu dialoq tərəflər arasında münasibətlərdə yaranmış müsbət dinamikanı davam etdirmək və nəqliyyat sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək üçün yeni perspektivlər açır. Əldə olunmuş irəliləyişi nəzərdən keçirmək, ortaq prioritetləri bir daha təsdiqləmək və konkret növbəti addımları müəyyən etmək baxımından belə müzakirələr əlavə imkan yaradır.

TEN-T ölkəmiz üçün hansı strateji əhəmiyyət daşıyır?

Trans-Avropa Nəqliyyat Şəbəkəsi Avropa İttifaqı daxilində və onun qonşu regionlarında avtomobil, dəmir yolu, dəniz, daxili su və hava nəqliyyatı infrastrukturunu birləşdirən strateji layihələr toplusudur. Əsas məqsədi sərnişin və yük daşımalarını sürətləndirmək, sərhədyanı əlaqələri gücləndirmək və nəqliyyat sistemlərini daha dayanıqlı və rəqəmsal etməkdir.

TEN-T müasir geosiyasi və geoiqtisadi reallıqlar fonunda nəhəng nəqliyyat-logistika arxitekturası hesab olunur və bu layihəyə qoşulan ölkələrin sayı artmaqdadır. Bu baxımdan, Zəngəzur dəhlizinin TEN-T kimi strateji bir nəqliyyat şəbəkəsi ilə əlaqələndirilməsinin gündəmə gəlməsi, Cənubi Qafqazın Avropa üçün nə dərəcədə əhəmiyyətli bir tranzit məkanına çevrildiyini ortaya qoyur. Bu, Zəngəzur dəhlizinin regional deyil, qlobal nəqliyyat xəritəsində mövqeyini gücləndirəcək əsas layihələrdən biri olduğunu təsdiqləyir. Dəhliz Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa quru əlaqəsini təmin etməklə yanaşı, Orta Dəhlizin funksionallığını artırmaq potensialına malikdir.



Cari ilin mart ayında Bakıda keçirilən "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası (TBNM BA) işçi qrupunun iclasında Orta Dəhlizdə daşınmaların həcminin artırılması üçün mövcud infrastrukturların modernləşdirilməsi və yeni logistika qovşaqlarının tikintisi, dəhliz üzərində yerləşən ölkələrin nəqliyyat-logistika şəbəkələrinin daha sıx əlaqələndirilməsi, rəqəmsal idarəetmənin qurulması və digər məsələlər müzakirə olunub. Orta Dəhlizdə yer almaq niyyətlərini bildirən Polşa, Litva, Sinqapur, Bolqarıstan və Rumıniyanın müvafiq qurumlarının nümayəndələri mövcud nəqliyyat şəbəkələrinin əlaqələndirilməsi üçün tədbirlər ssenarisi hazırlanacağını vurğulayıblar. Bu, faktiki olaraq TEN-T- Orta Dəhliz zəncirinin qurulması deməkdir. Avropa Komissiyası səviyyəsində bu dəhlizin TEN-T çərçivəsində müzakirə olunması isə Zəngəzurun Avropa-Asiya nəqliyyat zəncirinin mümkün tərkib hissəsi kimi qəbul edildiyini təsdiq edir.

Beləliklə, gələcəkdə TRIPP layihəsi çərçivəsində Zəngəzur xəttinin Orta Dəhlizə və TEN-T-ə inteqrasiyası mümkünləşəcək.

Zəngəzurun TEN-T şəbəkəsinə daxil edilməsi Azərbaycan və Avropa İttifaqı arasında iqtisadi əməkdaşlığa yeni töhfə verməklə yanaşı, nəqliyyat bağlatılarında birgə qlobal bazar təmsilçiliklərini gücləndirəcək. Eyni zamanda, zəngin təbii və iqtisadi resursları, logistik imkanları olan Naxçıvan Muxtar Respublikasının regional nəqliyyat sisteminə tam inteqrasiyasını təmin etməklə, bu bölgənin də tranzit potensialını əhəmiyyətli dərəcədə artıracaq, Avropa-Asiya bazarlarına çıxış qapılarını möhkəmləndirəcək.

Transxəzər Fiber-Optik Kabel Xətti - Aİ üçün rəqəmsal imkanlar

Azərbaycan və Avropa arasında bağlantı yaradacaq ən perspektivli layihələrdən biri də Transxəzər Fiber-Optik Kabel Xəttidir. Ötən ay Qazaxıstan və Azərbaycan hökumətləri tərəfindən istifadəyə verilən bu layihə çoxistiqamətli olmaqla, Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropanın rəqəmsal bağlantısını nəzərdə tutur. Belə ki, fiber-optik kabel "Rəqəmsal İpək Yolu" marşrutları ilə əlaqələndirilərək Asiya-Xəzər-Avropa rəqəmsal dəhlizini formalaşdıracaq.

Transxəzər Fiber Optik Kabel Xətti layihəsinin Orta Dəhliz təşəbbüsünə və "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu" (TRIPP) təşəbbüsünə daxil edilməsi də müzakirə olunur. Layihənin reallaşmasında maraqlı tərəf olan beynəlxalq şirkətlər qrupu "NEQSOL Holding"in nümayəndəsi Kirill Rubinski bildirib ki, birgə layihələrin inkişaf perspektivləri böyükdür və beynəlxalq telekommunikasiya şirkətləri bu təşəbbüsü dəstəkləyir.

"Horizon Europe" proqramı çərçivəsində əməkdaşlıq

Avropa Komissiyasının Mobillik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbəri Maqda Kopçinska Azərbaycan və Aİ arasında münasibətlərin yeni istiqamətlər üzrə daha da möhkəmləndiyinə diqqət çəkərək ötən il Brüsseldə Azərbaycan nümayəndə heyəti ilə keçirilən görüşdən sonra əməkdaşlığın nəzərəçarpacaq dərəcədə inkişaf etdiyini xatırladıb. Regional bağlantılar, rəqəmsallaşma və aviasiya sahələri birgə fəaliyyətin genişləndirilməsi ortaq maraqların olduğu əsas istiqamətlərdir. Tərəflər aviasiya və dəniz nəqliyyatı sahələrində əməkdaşlığın genişləndirilməsində də imkanları səfərbər etmək niyyətindədir. Həmçinin süni intellekt və kibertəhlükəsizlik sahəsində kadr potensialının gücləndirilməsi, Avropa İttifaqı şirkətlərinin Azərbaycandakı fəaliyyəti, eləcə də Azərbaycanın "Horizon Europe" proqramı çərçivəsində layihələrdə iştirak imkanlarının artırılması da nəzərdə tutulur.

E.CƏFƏRLİ

Azərbaycanın geostrateji siyasi xəttində Avropa İttifaqı...



Tərəfdaşlıqlar milli maraqlara əsaslanan çoxşaxəli əməkdaşlığı əhatə edir

Azərbaycanın geostrateji siyasi xəttində strateji tərəfdaşlıq münasibətlərinin qurulması və genişləndirilməsi mühüm istiqamətlərdən biridir. Bu siyasətin əsas mahiyyəti ölkəmizin milli maraqlarının beynəlxalq münasibətlər sistemində etibarlı şəkildə təmin olunması, siyasi mövqelərinin möhkəmləndirilməsi, iqtisadi imkanlarının genişləndirilməsi və yeni əməkdaşlıq platformalarının formalaşdırılmasıdır. Bu baxımdan, Avropa ilə münasibətlər Azərbaycanın xarici siyasət gündəliyində xüsusi yer tutur. Çünki Avropa həm qlobal iqtisadiyyatın, həm beynəlxalq siyasi proseslərin, həm də enerji və nəqliyyat-kommunikasiya sistemlərinin mühüm mərkəzlərindən biridir.

Bakı Avropa dövlətləri ilə əlaqələrini yalnız ənənəvi diplomatik münasibətlər çərçivəsində deyil, uzunmüddətli strateji maraqlar və qarşılıqlı fayda prinsipləri əsasında inkişaf etdirir. Bu gün Azərbaycanın Avropa İttifaqına üzv olan 10 dövlətlə strateji tərəfdaşlıq münasibətlərini təsbit edən sənədlər imzalaması həmin siyasətin miqyasını və ardıcıllığını göstərir. Almaniya, İtaliya, Macarıstan, Bolqarıstan, Rumıniya, Polşa, Çexiya, Slovakiya, Xorvatiya, Litva və Latviya ilə formalaşdırılan bu münasibətlər siyasi dialoqdan iqtisadiyyat, enerji, nəqliyyat, müdafiə sənayesi, təhlükəsizlik, rəqəmsal inkişaf və humanitar əməkdaşlığa qədər geniş sahələri əhatə edir.

Avropa İttifaqının özü ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandumun imzalanması da bu münasibətlərin mühüm istiqamətidir. Beləliklə, Azərbaycanın Avropa siyasəti ayrı-ayrı dövlətlərlə ikitərəfli əməkdaşlığı və Aİ ilə institusional dialoqu paralel şəkildə inkişaf etdirən çoxşaxəli strategiyaya əsaslanır. Burada əsas prinsip Azərbaycanın müstəqil siyasi iradəsinin, suveren hüquqlarının və iqtisadi potensialının qarşılıqlı əməkdaşlığın mərkəzində dayanmasıdır.

Almaniya və Avropa ilə münasibətlərdə yeni strateji mərhələ

Azərbaycanın Almaniya ilə münasibətlərinin strateji tərəfdaşlıq gündəliyi səviyyəsinə yüksəldilməsi Bakı-Berlin əlaqələrinin inkişafında yeni mərhələnin başlanğıcıdır. 2026-cı il iyulun 21-də Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri çərçivəsində Almaniya Kansleri Fridrix Merts ilə imzaladığı "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə" iki ölkənin əməkdaşlığının gələcək istiqamətlərini müəyyənləşdirən mühüm sənəddir. Bu sənəd Almaniyanın Azərbaycanın Avropa siyasətindəki yerinin daha da möhkəmlənməsinə, münasibətlərin yeni məzmun qazanmasına xidmət edir.

Almaniya Avropanın aparıcı iqtisadi və siyasi mərkəzlərindən biri olmaqla yanaşı, beynəlxalq qərarların formalaşmasında da mühüm mövqeyə malikdir. Bu ölkə ilə münasibətlərin inkişafı Azərbaycanın Avropa siyasi məkanında əlaqələrinin genişləndirilməsi, iqtisadi imkanlarının artırılması və regional mövqelərinin beynəlxalq səviyyədə daha yaxşı anlaşılması baxımından əhəmiyyətlidir. Təsadüfi deyil ki, imzalanmış sənəddə tərəflər dövlət suverenliyinə, müstəqilliyə və ərazi bütövlüyünə hörmət prinsiplərini bir daha təsdiqləyiblər. Almaniya, həmçinin 8 avqust 2025-ci il Vaşinqton sammitinin nəticələrini və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması istiqamətində atılan addımları alqışlayaraq davamlı sülh səylərinə dəstəyini ifadə edib.

Birgə Bəyannamə əməkdaşlığın konkret istiqamətlərini də müəyyənləşdirir. Siyasi və diplomatik məsləhətləşmələrin intensivləşdirilməsi, ticarət və investisiyaların genişləndirilməsi, kənd təsərrüfatı, yaşıl enerji, aşağı karbonlu hidrogen, enerji səmərəliliyi, nəqliyyat-kommunikasiya, infrastruktur, müdafiə sənayesi, minatəmizləmə, təhsil, elm və rəqəmsal texnologiyalar bu gündəliyin əsas istiqamətləridir. Xüsusilə Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyətinin davam etdirilməsi iqtisadi əlaqələrin institusional əsaslarının möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir.

Noyabrın 17-də Almaniyanın xarici işlər naziri Yohann Vadefulun Bakıya səfəri zamanı da tərəflər enerji, nəqliyyat, logistika, investisiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsini müzakirə ediblər. Almaniyaya Azərbaycan qazının ixracına başlanması isə münasibətlərin iqtisadi və enerji ölçüsünə yeni məzmun əlavə edir. Beləliklə, Berlinlə strateji gündəliyin formalaşdırılması Azərbaycanın Avropanın aparıcı dövlətləri ilə münasibətlərini qarşılıqlı maraqlar əsasında inkişaf etdirmək siyasətinin mühüm nəticəsidir.

Macarıstan - siyasi etimadın iqtisadi və enerji tərəfdaşlığına çevrilməsi

Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə strateji tərəfdaşlıq münasibətlərində Macarıstan xüsusi yer tutur. Bakı ilə Budapeşt arasında əlaqələr uzun illərdir ki, qarşılıqlı siyasi etimad, beynəlxalq platformalarda əməkdaşlıq və iqtisadi maraqlar əsasında inkişaf edir. 2014-cü il noyabrın 11-də Prezident İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban tərəfindən imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə münasibətlərin hüquqi-siyasi əsasını formalaşdırıb. 2023-cü il yanvarın 30-da isə tərəflər Genişləndirilmiş Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamaqla əməkdaşlığı daha yüksək səviyyəyə qaldırıblar.



Bu sənədin əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan-Macarıstan münasibətləri artıq yalnız ənənəvi siyasi dialoq və dostluq əlaqələri ilə məhdudlaşmır. Enerji təhlükəsizliyi, ticarət, investisiya, nəqliyyat, kənd təsərrüfatı, müdafiə sənayesi, təhsil, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq genişlənir. Macarıstanın Avropa İttifaqı daxilində Azərbaycanın maraqlarına həssas yanaşması, Bakı ilə Brüssel arasında dialoqun inkişafına verdiyi önəm də münasibətlərin siyasi məzmununu artırır.

Enerji əməkdaşlığı bu tərəfdaşlığın əsas istiqamətlərindəndir. Avropanın enerji təchizatının şaxələndirilməsi zərurəti Azərbaycanın strateji əhəmiyyətini artırdığı kimi, Macarıstan üçün də ölkəmizlə əməkdaşlığı mühüm edir. 2023-cü ildə imzalanmış təbii qaz sahəsində əməkdaşlıq haqqında memorandum bu istiqamətdə konkret addımlardan biridir. Azərbaycan qazının Avropa bazarlarına çıxarılması və Macarıstanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin iştirak imkanları ikitərəfli münasibətlərin praktiki əhəmiyyətini göstərir.

Bununla yanaşı, Şuşa şəhəri ilə Macarıstanın Vesprem şəhəri arasında dostluq əlaqələrinin qurulması, şəhərsalma, turizm, elm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında memorandum imzalanması tərəfdaşlığın yalnız dövlətlərarası siyasi və iqtisadi münasibətlərdən ibarət olmadığını göstərir. Macarıstanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına verdiyi siyasi dəstək də xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Budapeşt Bakı üçün Avropada etibarlı tərəfdaşlardan biridir. Genişləndirilmiş Strateji Tərəfdaşlıq Bəyannaməsi isə qarşılıqlı maraqların daha geniş sahələrdə uzlaşdırılması və münasibətlərin uzunmüddətli perspektivdə inkişaf etdirilməsi üçün möhkəm zəmin yaradır.

Bolqarıstan, Rumıniya və Polşa - enerji təhlükəsizliyi, nəqliyyat və iqtisadi əməkdaşlığın Avropa istiqaməti

Azərbaycanın Bolqarıstan, Rumıniya və Polşa ilə strateji tərəfdaşlıq münasibətləri Avropanın müxtəlif coğrafi istiqamətlərində milli maraqlarımızın təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu ölkələrlə əməkdaşlıqda enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya, ticarət, investisiya, sənaye və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət əsas yer tutur. Xüsusilə Bolqarıstan və Rumıniyanın Cənub-Şərqi Avropada, Polşanın isə Mərkəzi və Şərqi Avropada tutduğu mövqe Azərbaycanın Avropa ilə əlaqələrinin coğrafiyasını genişləndirir.

Bolqarıstanla strateji tərəfdaşlığın əsası 2015-ci il martın 4-də Prezident İlham Əliyev və Bolqarıstan Prezidenti Rosen Plevneliev tərəfindən imzalanmış Birgə Bəyannamə ilə qoyulub. 2024-cü il mayın 8-də isə Prezident İlham Əliyev və həmin dövrdə Bolqarıstanın prezidenti olmuş hazırki baş nazir Rumen Radev Strateji Tərəfdaşlığın Gücləndirilməsi haqqında Birgə Bəyannamə imzalayıblar. Bununla münasibətlər daha yüksək mərhələyə yüksəlib. Bolqarıstan Azərbaycanın enerji resurslarının Avropa bazarlarına çatdırılmasında mühüm tərəfdaşlardan biridir. Cənub Qaz Dəhlizinin Avropa istiqamətində Bolqarıstanın iştirakı, Azərbaycan qazının bu ölkəyə tədarükü və SOCAR ilə Bolqarıstanın qaz şirkətləri arasında əməkdaşlıq enerji əlaqələrinin real iqtisadi nəticələrini göstərir. İkitərəfli münasibətlərdə rəqəmsal texnologiyalar, innovasiya, aviasiya, turizm və sənaye sahələri də mühüm yer tutur. 2024-cü ildə imzalanan sənədlər sırasında AZAL və "Bulgaria Air" arasında kod paylaşma sazişinin, texnoloji innovasiya sahəsində əməkdaşlıq memorandumunun olması bu istiqamətlərin genişləndirilməsinə xidmət edir.

Rumıniya Azərbaycanın Avropa İttifaqına üzv dövlətlər arasında strateji tərəfdaşlıq sənədi imzaladığı ilk ölkədir. 2009-cu il sentyabrın 28-də imzalanmış Birgə Bəyannamə iki ölkə arasında siyasi, iqtisadi, humanitar, enerji və nəqliyyat sahələrində uzunmüddətli əməkdaşlığın əsasını qoyub. Buxarestlə münasibətlərin əhəmiyyəti təkcə ikitərəfli əlaqələrlə məhdudlaşmır. Rumıniya Azərbaycanın Avropa bazarlarına çıxışında, Qara dəniz regionunda nəqliyyat və enerji bağlantılarının inkişafında mühüm tərəfdaşdır. Xüsusilə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın iştirakı ilə Qara dənizin dibi ilə elektrik enerjisi kabelinin çəkilməsi layihəsi "yaşıl enerji" ixracı baxımından strateji perspektiv yaradır. Bu layihə Azərbaycanın bərpaolunan enerji potensialının Avropa bazarlarına çatdırılmasına, Cənubi Qafqazla Avropa arasında yeni enerji bağlantısının formalaşmasına imkan verə bilər. SOCAR-ın Rumıniyada fəaliyyət göstərməsi də iqtisadi əməkdaşlığın konkret göstəricilərindəndir.

Polşa ilə münasibətlər isə 2017-ci il iyunun 27-də Varşavada Prezident İlham Əliyev və Prezident Andjey Duda tərəfindən imzalanmış Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə ilə yeni mərhələyə qədəm qoyub. Sənədin adından da göründüyü kimi, burada siyasi münasibətlərlə yanaşı, iqtisadi əməkdaşlığın genişləndirilməsi xüsusi prioritet kimi müəyyənləşdirilib. Ticarət, investisiya, sənaye, kənd təsərrüfatı, nəqliyyat, müdafiə və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq iki ölkənin gündəliyində mühüm yer tutur. Polşa ilə tərəfdaşlıq Azərbaycanın Mərkəzi və Şərqi Avropada iqtisadi və siyasi əlaqələrinin genişləndirilməsi, Avropa bazarlarına inteqrasiya imkanlarının artırılması baxımından əhəmiyyətlidir.

Bu üç ölkə ilə münasibətlərin ortaq xüsusiyyəti Azərbaycanın enerji, nəqliyyat və iqtisadi potensialının Avropanın müxtəlif regional mərkəzləri ilə uzlaşdırılmasıdır. Bakı bu əlaqələri ayrı-ayrı ikitərəfli münasibətlər çərçivəsində deyil, daha geniş Avrasiya əməkdaşlıq sisteminin tərkib hissəsi kimi inkişaf etdirir.

Çexiya, Slovakiya və Xorvatiya - sənaye, müdafiə və regional bağlantılar üzrə tərəfdaşlıq

Azərbaycanın Çexiya, Slovakiya və Xorvatiya ilə strateji tərəfdaşlıq münasibətləri də Avropa İttifaqının Mərkəzi və Cənub-Şərqi Avropa istiqamətlərində əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir. Bu dövlətlərlə münasibətlərin əsas xüsusiyyəti də siyasi dialoqun iqtisadi, sənaye, enerji, müdafiə və təhlükəsizlik sahələrində konkret əməkdaşlıq mexanizmləri ilə tamamlanmasıdır. Hər üç ölkə Azərbaycanın Avropa ilə əlaqələrinin şaxələndirilməsində, müxtəlif regional platformalarda qarşılıqlı fəaliyyətin gücləndirilməsində mühüm tərəfdaşlardır.

Çexiya ilə strateji tərəfdaşlığın əsası 2015-ci il sentyabrın 15-də Prezident İlham Əliyev və Çexiya Prezidenti Miloş Zeman tərəfindən imzalanmış Birgə Bəyannamə ilə qoyulub. Bu sənəd siyasi, iqtisadi və humanitar sahələrdə münasibətlərin inkişafı üçün yeni imkanlar açıb. Çexiya ilə iqtisadi əməkdaşlıqda enerji, sənaye, maşınqayırma, kənd təsərrüfatı, nəqliyyat infrastrukturu və texnologiyalar xüsusi yer tutur. Çexiya şirkətlərinin Azərbaycan iqtisadiyyatında iştirak imkanları, qarşılıqlı ticarətin genişləndirilməsi və investisiya əlaqələrinin inkişafı tərəfdaşlığın əsas istiqamətlərindəndir. Çexiya Avropa İttifaqı daxilində Azərbaycanın maraqlarının təqdim olunması və qarşılıqlı siyasi dialoqun inkişafı baxımından da əhəmiyyətli mövqeyə malikdir.

Slovakiya ilə münasibətlər isə 2024-cü il mayın 7-də Prezident İlham Əliyev və Baş nazir Robert Fitso tərəfindən imzalanmış Strateji Tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə ilə yeni mərhələyə yüksəlib. Sənədin imzalanması ilə yanaşı, müdafiə sənayesi və hərbi-texniki əməkdaşlıq sahəsində memorandum, müdafiə sahəsində əməkdaşlıq haqqında saziş də imzalanıb. Bu, tərəfdaşlığın yalnız diplomatik və iqtisadi sahələrlə məhdudlaşmadığını, təhlükəsizlik və müdafiə istiqamətlərini də əhatə etdiyini göstərir. Enerji, ticarət, sənaye, nəqliyyat və işğaldan azad edilmiş ərazilərin bərpası sahəsində əməkdaşlıq da münasibətlərin mühüm istiqamətlərindəndir. Slovakiyanın Azərbaycanın azad edilmiş ərazilərində bərpa prosesində iştirak etməsi ikitərəfli əlaqələrin praktiki məzmununu genişləndirir.

Xorvatiya ilə strateji tərəfdaşlıq münasibətləri isə 2013-cü il martın 11-də Zaqrebdə Prezident İlham Əliyev və Xorvatiya Prezidenti İvo Yosipoviç tərəfindən imzalanmış Strateji Tərəfdaşlıq və Dostluq Münasibətləri haqqında Zaqreb Bəyannaməsi ilə rəsmiləşdirilib. Bu sənəd siyasi dialoqun möhkəmləndirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişafı üçün əsas yaradıb. Enerji, infrastruktur, turizm, kənd təsərrüfatı və nəqliyyat əlaqələri tərəfdaşlığın prioritet sahələridir. Xorvatiyanın Adriatik dənizi hövzəsində yerləşməsi və Avropa enerji infrastrukturundakı mövqeyi Azərbaycan üçün əlavə əməkdaşlıq imkanları yaradır. Eyni zamanda, Zaqrebin Avropa İttifaqı çərçivəsində Bakı ilə dialoqun inkişafına yanaşması siyasi münasibətlərin əhəmiyyətini artırır.

Beləliklə, Çexiya, Slovakiya və Xorvatiya ilə strateji tərəfdaşlıq Azərbaycanın Avropada yalnız enerji təchizatçısı kimi deyil, həm də sənaye, müdafiə, nəqliyyat və investisiya sahələrində əməkdaşlıq edən dövlət kimi mövqeyini genişləndirir. Bu münasibətlər ölkəmizin xarici siyasətində regional fərqlilikləri nəzərə alan, hər bir tərəfdaşla qarşılıqlı maraqlara əsaslanan çevik əməkdaşlıq modelinin nümunəsidir.

Litva və Latviya - Baltik regionu ilə strateji əlaqələrin genişləndirilməsi

Azərbaycanın Baltik regionu ölkələri ilə münasibətlərinin inkişafı Avropa siyasətinin mühüm istiqamətlərindən biridir. Litva və Latviya ilə strateji tərəfdaşlıq əlaqələri ölkəmizin Avropanın şimal-şərqində siyasi, iqtisadi və diplomatik mövqelərinin genişləndirilməsinə xidmət edir. Bu dövlətlərlə münasibətlərin əhəmiyyəti yalnız ikitərəfli əməkdaşlıqla məhdudlaşmır. Baltik regionunun Avropa İttifaqı və NATO daxilindəki mövqeyi, Şərqi Avropa ilə Şimali Avropa arasında bağlantılardakı rolu, eləcə də nəqliyyat və logistika imkanları Azərbaycan üçün əlavə əməkdaşlıq perspektivləri yaradır.

Litva ilə strateji tərəfdaşlığın əsası 2007-ci il sentyabrın 13-də Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfəri zamanı imzalanmış Prezidentlərin Tərəfdaşlıq Münasibətlərinin İnkişafı haqqında Birgə Bəyannamə ilə qoyulub. Sənəddə Azərbaycan-Litva siyasi, iqtisadi, hərbi və mədəni əlaqələrinin inkişafının əhəmiyyəti xüsusi vurğulanırdı. Sonrakı illərdə münasibətlər müxtəlif istiqamətlər üzrə genişlənib. İqtisadiyyat, sənaye, energetika, informasiya-kommunikasiya texnologiyaları, dəmir yolu nəqliyyatı, turizm və mədəniyyət sahələrində imzalanmış sənədlər əməkdaşlığın hüquqi bazasını möhkəmləndirib. Litvanın Avropa İttifaqına inteqrasiya təcrübəsi də Azərbaycan üçün qarşılıqlı təcrübə mübadiləsi və siyasi dialoq baxımından əhəmiyyət daşıyır. 2022-ci ildə Litva Prezidenti Gitanas Nausedanın Azərbaycana səfəri zamanı tərəflər 2007-ci il Birgə Bəyannaməsinin münasibətlərin inkişafındakı rolunu bir daha vurğulayıblar.

Latviya ilə strateji tərəfdaşlıq isə 2017-ci il iyulun 17-də Prezident İlham Əliyev və Latviya Prezidenti Raymonds Veyonis tərəfindən imzalanmış Strateji Tərəfdaşlığın Yaradılması haqqında Birgə Bəyannamə ilə rəsmiləşdirilib. Sənəd iki ölkə arasında siyasi, iqtisadi, ticarət, nəqliyyat, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradıb. Xüsusilə beynəlxalq kombinə edilmiş yükdaşımalar, logistika və nəqliyyat sahələrində əməkdaşlıq Azərbaycanın Avropa ilə bağlantılarının inkişafı baxımından diqqətəlayiqdir. 2017-ci ildə imzalanmış sənədlər sırasında nəqliyyat və təhsil sahələrində əməkdaşlıqla bağlı razılaşmaların olması da tərəfdaşlığın çoxşaxəli xarakterini göstərir.

Litva və Latviya ilə əlaqələr Azərbaycanın Avropanın Baltik regionuna çıxış imkanlarını genişləndirməklə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində siyasi dialoqun inkişafına da töhfə verir. Bu ölkələrlə münasibətlərdə qarşılıqlı suverenlik və ərazi bütövlüyünə hörmət, beynəlxalq hüququn prinsiplərinə əsaslanan əməkdaşlıq mühüm yer tutur. Bakı üçün Baltik istiqaməti Avropanın yalnız ənənəvi siyasi və iqtisadi mərkəzləri ilə deyil, digər regional güc mərkəzləri ilə də sistemli münasibətlər qurmaq strategiyasının tərkib hissəsidir. Beləliklə, Litva və Latviya ilə strateji tərəfdaşlıq Azərbaycanın Avropa məkanında diplomatik əlaqələrinin coğrafiyasını genişləndirən, iqtisadi və nəqliyyat imkanlarını artıran mühüm əməkdaşlıq platformasıdır.

Pərviz SADAYOĞLU

“İdeoloji təhlükəsizlik, innovasiya və gənclərin intellektual potensialı”







Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində Gəncə İdman Sarayında keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin dördüncü mərhələsinin - qış məktəbinin üçüncü günündə gənc fəallarla “İdeoloji təhlükəsizlik, innovasiya və gənclərin intellektual potensialı” mövzusunda görüş keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə YAP İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları Hikmət Məmmədov, Pərvin Kərimzadə, YAP İdarə Heyətinin üzvü Vazeh Əskərov və Milli Məclisin deputatı Səbinə Xasayeva çıxış ediblər.

Çıxışlarda müasir dövrdə gənclərin intellektual inkişafının, innovativ yanaşmaların mənimsənilməsinin və milli-ideoloji dəyərlərin qorunmasının əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, müasir qlobal çağırışlar, informasiya mühitində baş verən sürətli dəyişikliklər və rəqəmsal transformasiya dövründə ideoloji təhlükəsizliyin təmin olunması dövlətçilik maraqlarının qorunmasında mühüm rol oynayır.

Görüşdə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik fəlsəfəsinin və gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi diqqətə çatdırılıb, gənclərin elmi və intellektual potensialının artırılması, innovativ ideyalarının dəstəklənməsi və onların ölkənin sosial-iqtisadi, eləcə də mədəni-memarlıq inkişafında fəal iştirakının vacibliyi qeyd olunub.

Bildirilib ki, gənclər yalnız yeni texnologiyaların və rəqəmsal alətlərin fəal istifadəçisi deyil, həm də milli kimliyin, tarixi yaddaşın və dövlətçilik ənənələrinin etibarlı daşıyıcıları olmalıdırlar. Natiqlər “Şəhərsalma və Memarlıq İli” çərçivəsində keçirilən tədbirlərdə müasir memarlıq və şəhərsalma həllərinin ekoloji dayanıqlılıq, tarixi-mədəni irsin qorunması və “Böyük Qayıdış” konsepsiyası ilə uzlaşdırılmasının gənc fəalların qarşısında duran əsas istiqamətlərdən biri kimi dəyərləndiriblər.

Qeyd olunub ki, gənclərin bilik səviyyəsinin artırılması, yaradıcı düşüncələrinin inkişaf etdirilməsi və vətənpərvərlik ruhunda yetişməsi əsas prioritetlərdəndir. Eyni zamanda, informasiya təhlükəsizliyinin qorunmasında, dezinformasiyaya qarşı mübarizədə və milli maraqların müdafiəsində gənclərin fəal iştirakının vacibliyi vurğulanıb.

Sonra iştirakçıların sualları cavablandırılıb.

Daha sonra layihə iştirakçıları Daşkəsən rayonunun Xoşbulaq yaylasına ekskursiya ediblər. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Orxan Abbasov və YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçiyev Xoşbulaq yaylasının füsunkar təbiəti, ekoloji xüsusiyyətləri, turizm imkanları və iqtisadi potensialından geniş bəhs ediblər. Qeyd olunub ki, regionların hərtərəfli və davamlı inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biridir və gənclərin belə səyyar tədbirlər vasitəsilə bölgələrin real potensialı ilə yaxından tanış olması onların dünyagörüşünün genişlənməsinə, eləcə də gələcək təşəbbüslərinin daha məqsədyönlü formalaşmasına mühüm töhfələr verir.

Həmçinin Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Dizayn fakültəsinin dekanı, dosent Fərid Kərimovun moderatorluğu ilə “Qış şəhəri və ekoloji dayanıqlılıq” mövzusunda praktiki seminar təşkil olunub. Komanda oyunu formatında keçirilən sessiya zamanı gənclər ekologiya, urbanizm və enerji səmərəliliyi prinsiplərini əsas götürərək sərt və qarlı hava şəraitinə davamlı innovativ şəhər və kənd modelləri hazırlayıblar. İştirakçılar təbii və müasir materialların uyğunlaşdırılması, istilik itkisinin azaldılması, dayanıqlı şəhərsalma həllərinin tətbiqi və iqlimə uyğun məkan planlaşdırılması istiqamətində öz ideyalarını maketlər üzərində əks etdiriblər.

Günün sonunda gənc fəallar üçün “Musiqi və tarix kodu” adlı əyləncəli-intellektual oyun və müxtəlif mədəni-əyləncəli tədbirlər təşkil olunub.



Milli Məclisin iclasında...
Millət vəkilləri 10 qanun layihəsini qəbul ediblər

Noyabrın 27-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi barədə məlumat verib. Gündəliyə 10 məsələ daxil edilib.

Əvvəlcə “Azərbaycan Respublikasının Orta Kür kontrakt sahəsi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə “Exxon Mobil Exploration & Production Azerbaijan Limited” şirkəti və “Middle Kura” MMC arasında Saziş”in qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə” qanun layihəsi qəbul olunub. Saziş bir tərəfdən Azərbaycan Respublikasını təmsil edən SOCAR, digər tərəfdən Podratçı tərəflər qismində “Exxon Mobil Exploration & Production Azerbaijan Limited” (Exxon Mobil) və “Middle Kura” MMC arasında bağlanıb. Saziş Orta Kür Kontrakt Sahəsində Qeyri-ənənəvi Ehtiyatların kəşfiyyatı və işlənməsi üçün hüquqi və kommersiya şərtlərini müəyyən edir.

Kontrakt sahəsi Qarabağ, Mərkəzi Aran, Mil-Muğan və Gəncə-Daşkəsən iqtisadi rayonlarının bəzi hissələrini əhatə edən quru ərazisidir. Ətraf mühitin mühafizəsi Sazişin şərtləri nəzərə alınmaqla qanunvericiliyə, beynəlxalq neft-qaz sənayesində qəbul edilmiş müsbət təcrübəyə və müəyyən edilmiş ekoloji standartlara uyğun təmin edilir. Layihənin idarəedilməsi üçün podratçının nümayəndələrindən ibarət İdarəetmə Komitəsi yaradılacaq. Podratçı və Operator əməliyyat tələbləri və peşə uyğunluğu nəzərə alınmaqla Azərbaycan vətəndaşlarının işə götürülməsinə və yerli şirkətlərə üstünlük verirlər.

Sonra Əmək Məcəlləsinə təklif edilən dəyişikliklər qəbul olunub. Qanun layihəsi 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunun icrası məqsədilə hazırlanıb. Belə ki, sözügedən qanunla “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Qanuna dəyişiklik edilib və istehsalat təcrübəsi (təlimi) keçən tələbə və şagirdlərin, könüllü fəaliyyətin iştirakçısı olan könüllülərin həmin qanunla müəyyən edilmiş qaydada icbari sığorta olunması nəzərdə tutulub. Eyni zamanda, Dövlət Əməyin Mühafizəsi Fondunun maliyyə mənbələri siyahısına istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanı həyata keçirən sığortaçıların könüllü ödəmələri də daxil edilib. Həmin Qanundan irəli gələrək Əmək Məcəlləsinin 208-ci və 221-ci maddələrinə uyğunlaşdırma xarakterli müvafiq dəyişikliklər edilir.

Millət vəkilləri Mülki Məcəllədə, Vergi Məcəlləsində və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda dəyişiklik edilməsi barədə layihəni isə birinci oxunuşda qəbul ediblər. Qanun layihəsi hüquqi şəxsin ləğv zamanı müvafiq elektron informasiya sistemində işəgötürənlə bağlanmış əmək müqaviləsinə xitam verilməsinin tənzimlənməsi məqsədilə hazırlanıb. Belə ki, hüquqi şəxs ləğv edildiyi üçün həmin hüquqi şəxsin adından elektron informasiya sistemində əməliyyatların aparılması mümkün olmur. Eyni hal fiziki şəxs olan işəgötürən vergi uçotundan çıxarıldığı hallarda da baş verir. Beləliklə, hüquqi şəxslərin (o cümlədən xarici dövlətin rezidentinin Azərbaycan Respublikasında fəaliyyət göstərən daimi nümayəndəlik yaratmayan bölməsi, idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs) ləğvi və vergi uçotundan çıxarılması yalnız onların işçiləri ilə əmək müqaviləsinə xitam verildikdə mümkün hesab ediləcək. Həmçinin fiziki şəxs olan vergi ödəyicisinin vergi uçotundan çıxarılması da yalnız işçiləri ilə əmək müqaviləsinə xitam verildikdən sonra mümkün hesab olunacaq.

Qanun qüvvəyə minənədək qeyd olunan subyektlərlə (fiziki şəxs olan işəgötürənlər istisna olmaqla) işçi arasında elektron informasiya sistemində xitam verilməmiş əmək müqaviləsi işçinin müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən baxılaraq qüvvədən düşmüş hesab ediləcək.

“Torpaq islahatı haqqında” Qanuna uyğun olaraq vətəndaşlara verilmiş, lakin onların mülkiyyət hüququnun rəsmiləşdirilmədiyi həyətyanı torpaq sahələri ilə bağlı məsələlər tənzimlənəcək. Bu məsələ Mülki Məcəllədə və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunda dəyişiklik edilməsi barədə layihədə əksini tapıb. Bildirilib ki, “Torpaq islahatı haqqında” Qanuna uyğun olaraq vətəndaşlara verilmiş həyətyanı torpaqlara ləğv edilmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən mülkiyyət hüququnu təsdiq edən şəhadətnamələr tərtib edilirdi. Bu proses 2006-cı ilin iyulun 6-dək davam edib. Lakin həmin vaxtdan etibarən daşınmaz əmlak üzərində hüquqları təsdiq edən sənəd kimi dövlət reyestrindən çıxarışların verilməsinə başlanıldığı üçün şəhadətnamələrin verilməsi prosesi dayandırılıb, bunun əvəzinə Komitə tərəfindən vətəndaşlara torpaq sahəsinin planı və ölçüsü sənədi (plan-ölçü) verilməyə başlanılıb. Nəticədə, vətəndaşların bir qismi 2006-cı il iyulun 6-dək şəhadətnamə aldığı halda, digər qismi həmin müddətədək müraciət etmədiyindən onlara mülkiyyət hüququnu təsdiq edən şəhadətnamə əvəzinə yalnız texniki xarakterli plan-ölçü verilib.

Plan-ölçü hüquqmüəyyənedici sənəd olmadığından, onun əsasında torpaq sahəsi üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması və bu barədə çıxarışın verilməsi mümkün olmur. Halbuki hər iki halda torpaq sahələri vətəndaşlara torpaq islahatı çərçivəsində verilib. Beləliklə, eyni hüquqi əsasla torpaq sahəsi əldə etmiş vətəndaşlardan bir qismi mülkiyyət hüququnu təsdiq edən şəhadətnamə, digər qismi isə yalnız texniki xarakterli plan-ölçü əldə edib. Eyni problem bələdiyyələr tərəfindən vətəndaşlara ayrılmaqla Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən 2006-2015-ci illərdə plan-ölçü tərtib edilmiş həyətyanı torpaq sahələrinə münasibətdə də mövcud olub.

Qanun layihəsinə əsasən, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edildiyi 2015-ci il fevralın 6-dək olan dövrdə “Torpaq islahatı haqqında” Qanuna uyğun olaraq vətəndaşların mülkiyyətinə verilmiş həyətyanı torpaq sahələrinə dair tərtib edilmiş plan-ölçü sənədi həmin torpaq sahələri üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması üçün əsas kimi müəyyən edilir. Bununla da, eyni hüquqi əsaslarla torpaq sahələri əldə etmiş, lakin müxtəlif sənədlərlə təmin olunmuş vətəndaşlar arasında hüquqi vəziyyətin eyniləşdirilməsi və mülkiyyət hüquqlarının dövlət qeydiyyatı üçün hüquqi əsasın yaradılması təmin edilir.

İclasda, həmçinin “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” və “Texniki tənzimləmə haqqında” qanunlara dəyişikliklər (birinci oxunuş) edilib. Layihəyə əsasən, hər bir malın insanların həyat və sağlamlığına yarada biləcəyi təhlükənin dərəcəsi müəyyən ediləcək. Texniki reqlament üzrə məcburi tələblər malların, onlarla əlaqəli proseslərin və istehsal metodlarının təhlükəsizliyinin təmin edilməsi ilə məhdudlaşdırılır. Bu baxımdan, texniki reqlamentlərdə insanların həyat və sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsinə yarana biləcək risk nəzərə alınmalıdır. Bu cür risklərin qiymətləndirilməsi əldə edilə bilən elmi və texniki məlumatlara, emal texnologiyalarına və ya reqlamentlərin şamil edildiyi malların son istifadəsinə dair məlumatlara əsaslanmalıdır.

Layihəyə əsasən, təklif olunur ki, həmin risklərin qiymətləndirilməsinin nəticələri nəzərə alınmaqla hər bir malın insanların həyat və sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına yarada biləcəyi təhlükənin dərəcəsi müəyyən edilsin və bundan irəli gələrək təhlükəsizlik tələbləri reqlamentdə əks etdirilsin. Eyni zamanda, mala uyğunluq sertifikatının və ya uyğunluq bəyannaməsinin tələb olunması zərurəti də texniki reqlamentdə öz əksini tapacaq. Hazırkı qaydaya əsasən isə uyğunluq sertifikatı (yüksək riskli mallara münasibətdə) və ya uyğunluq bəyannaməsi (orta və aşağı riskli mallara münasibətdə) malların risk qrupuna uyğun olaraq tələb olunur. Malların risk qrupları üzrə təsnifatı ayrıca sənəd olaraq nəzərdə tutulmadığından, mala dair uyğunluq sertifikatının və ya uyğunluq bəyannaməsinin tələb olunması həmin malın təhlükəlilik dərəcəsi nəzərə alınmaqla reqlamentlə müəyyən ediləcək.

Qeyd olunanlardan irəli gələrək, “Texniki tənzimləmə haqqında” qanunun müddəalarında “risk səviyyəsi” ifadəsi “təhlükəlilik dərəcəsi” ifadəsi ilə əvəz edilir. Uyğunlaşdırma çərçivəsində “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” qanunda isə “orta riskli mallar” ifadəsinin çıxarılması təklif olunur.

İclasda “Dövlət rüsumu haqqında” qanuna da dəyişikliklər (birinci oxunuş) edilib. Dəyişikliyə əsasən, məhkəmə əmri haqqında ərizənin verilməsinə görə dövlət rüsumunun məbləği 100 manatdan 25 manata endirilir. Eləcə də, qiymətləndirilən iddialar üzrə apellyasiya, kassasiya və əlavə kassasiya şikayətlərinin verilməsinə görə müəyyən edilən dövlət rüsumunun iddianın yalnız mübahisələndirilən hissəsi ilə məhdudlaşdırılması təklif olunur.

Qiymətləndirilən və qiymətləndirilməyən iddialar üzrə apellyasiya, kassasiya və əlavə kassasiya şikayətlərinin verilməsinə görə dövlət rüsumu müvafiq iddialar üçün müəyyən edilmiş dövlət rüsumunun 50 faizi miqdarında müəyyən edilir. Təklif olunur ki, bu rüsum (dövlət rüsumunun 50 faizi) qiymətləndirilən iddialara münasibətdə ilkin iddianın bütövlükdə məbləğinin 50 faizinə deyil, yalnız mübahisələndirilən hissəsinə şamil edilsin. Bu, şikayət verən şəxsin rüsum yükünün azalmasına və rüsumun yalnız mübahisələndirilən hissəyə uyğun hesablanmasına səbəb olacaq.

Qeyd edək ki, deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər. Sonda spiker Sahibə Qafarova parlamentin növbəti iclasının dekabrın 1-də keçiriləcəyini bildirib.

Nardar BAYRAMLI

“Sülh körpüsü” təşəbbüsü üzrə 5-ci görüş...

Vətəndaş cəmiyyəti nümayəndələrinin görüşü etimadın möhkəmlənməsinə xidmət edir

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və dayanıqlı sülhün təmin olunması istiqamətində aparılan proseslər yalnız siyasi-diplomatik müstəvidəki təmaslarla məhdudlaşmır. Dövlətlərarası münasibətlərin yeni mərhələyə keçməsi, əldə olunmuş razılaşmaların ictimai müstəvidə dəstəklənməsi və gələcəkdə iki xalqın birgəyaşayış perspektivlərinin formalaşdırılması cəmiyyətlər arasında dialoqun genişləndirilməsini zəruri edir. Bu baxımdan, Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətlərinin nümayəndələrini bir araya gətirən “Sülh körpüsü” təşəbbüsü xüsusi əhəmiyyət daşıyır.

Noyabrın 26-27-də Ermənistanda keçirilən geniştərkibli ikitərəfli dəyirmi masa müzakirəsi bu istiqamətdə aparılan fəaliyyətin növbəti mərhələsidir. Sayca beşinci olan görüşdə hər iki ölkədən 60-dan çox vətəndaş cəmiyyəti nümayəndəsi iştirak edir. Müzakirələrin gündəliyinə 2025-ci il avqustun 8-də Vaşinqtonda razılaşdırılmış sülh gündəliyi, sülh prosesinin möhkəmləndirilməsi və institusionallaşdırılması, qarşılıqlı etimadın yaradılması, iqtisadi əməkdaşlıq, ticarət, nəqliyyat-kommunikasiya əlaqələri, humanitar məsələlər, gənclər və təhsil sahəsində əməkdaşlıq daxildir. Eyni zamanda, iki ölkənin vətəndaş cəmiyyəti təmsilçiləri arasında birbaşa və uzunmüddətli əlaqələrin qurulması məsələsi də diqqət mərkəzindədir.

Bu kimi görüşlər - onilliklər ərzində qarşıdurma şəraitində yaşamış iki cəmiyyətin nümayəndələrinin bir masa ətrafında toplaşması, birbirinin mövqeyini dinləməsi və gələcək münasibətləri müzakirə etməsi sülhün ictimai əsaslarının formalaşmasına xidmət edir. Bu prosesin ardıcıl xarakter alması isə təsadüfi deyil. Ötən ilin payızından etibarən keçirilən dörd görüş artıq qarşılıqlı dialoqun müəyyən təcrübəsini yaradıb. Beşinci görüş həmin təcrübənin genişləndirilməsi və əldə olunan nəticələrin daha sistemli müstəviyə keçirilməsi baxımından diqqət çəkir.

Dialoq platforması...

Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətlərinin nümayəndələrinin iştirakı ilə yaradılan “Sülh körpüsü” təşəbbüsü qısa müddətdə ardıcıl dialoq platformasına çevrilib. Təşəbbüs çərçivəsində ilk görüş 2025-ci il oktyabrın 21-22-də İrəvanda keçirilib. Bu görüşün əsas məqsədi uzun illər qarşıdurma şəraitində olmuş iki ölkənin ictimaiyyət nümayəndələri arasında birbaşa ünsiyyət yaratmaq, gələcək müzakirələrin istiqamətlərini müəyyənləşdirmək idi. Növbəti görüş həmin il noyabrın 21-22-də Bakıda təşkil olunub. Burada birgə layihələr, media əməkdaşlığı və vətəndaş cəmiyyətinin sülh prosesində daha fəal iştirakı müzakirə edilib. 2026-cı il fevralın 13-14-də Ermənistanda, Tsaxkadzorda keçirilən üçüncü görüşdə iştirakçıların dairəsi genişləndirilib. Regional təhlükəsizlik, iqtisadi əməkdaşlıq və etimad quruculuğu əsas müzakirə mövzuları olub. Aprelin 10-12-də isə dialoq platformasının dördüncü görüşünə Azərbaycanın Qəbələ şəhəri ev sahibliyi edib. Bu görüşdə sülh prosesinin perspektivləri, həssas məsələlərin açıq müzakirəsi və cəmiyyətlərin gələcək münasibətlərə hazırlanması diqqət mərkəzində saxlanılıb.

Göründüyü kimi, görüşlərin ardıcıllığı və qarşılıqlı səfərlər təşəbbüsün əsas xüsusiyyətlərindəndir. Tərəflər yalnız öz ölkələrində deyil, qarşı tərəfin ərazisində də müzakirələr aparmaqla dialoqun qarşılıqlı xarakter daşıdığını nümayiş etdirirlər. Bu, etimadın formalaşması baxımından mühüm amildir. Çünki qarşı tərəfi yalnız siyasi bəyanatlar və media materialları əsasında tanımaqla real ünsiyyət qurmaq arasında ciddi fərq var. İnsanların birbaşa təması stereotiplərin aradan qaldırılması, mövqelərin daha düzgün anlaşılması və qarşılıqlı münasibətlərdə praqmatik yanaşmanın güclənməsi üçün imkan yaradır.



Təbii ki, vətəndaş cəmiyyəti təmsilçilərinin görüşləri bütün problemləri birdən-birə həll edə bilməz. Lakin onlar siyasi razılaşmaların cəmiyyətlər tərəfindən qəbul olunmasına, sülh ideyasının ictimai şüurda möhkəmlənməsinə və gələcək əməkdaşlıq üçün sosial zəmin yaradılmasına əhəmiyyətli töhfə verə bilər.

Yeni konstitusiya layihəsinin təqdimatından 3 gün sonra...

Qeyd edək ki, Ermənistanın yeni konstitusiya layihəsinin ictimaiyyətə təqdim olunmasından üç gün sonra Azərbaycan-Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin növbəti görüşünün keçirilməsi diqqətçəkən məqamdır. Çünki yeni konstitusiya layihəsi və bu layihədə ölkəmizə qarşı ərazi iddialarının yer almaması iki ölkə arasında sülh müqaviləsinin imzalanması baxımından mühüm siyasi-hüquqi əhəmiyyət daşıyır. Bu baxımdan, konstitusiya layihəsinin açıqlanmasından sonra keçirilən beşinci görüşün siyasi və ictimai əhəmiyyəti daha da artır. Bir tərəfdən, Ermənistan cəmiyyətində sülhün hüquqi əsaslarının formalaşdırılması istiqamətində müzakirələr aparılır, digər tərəfdən, Azərbaycan və Ermənistanın ictimaiyyət nümayəndələri gələcək münasibətlərin konturlarını müzakirə edirlər. Bu iki prosesin paralel inkişafı sülh gündəliyinin yalnız hökumətlərin və siyasi rəhbərliyin məsuliyyəti olmadığını göstərir.

Açıqlandığı kimi, görüşün gündəliyində sülh prosesinin institusionallaşdırılması məsələsinin yer alması da təsadüfi deyil. Söhbət müvəqqəti siyasi razılaşmalardan daha çox, gələcəkdə münasibətlərin davamlı mexanizmlər əsasında qurulmasından gedir. İqtisadi əməkdaşlıq, ticarət, nəqliyyat bağlantıları, humanitar məsələlər və digər sahələr bu mexanizmlərin mühüm istiqamətləridir. Əgər cəmiyyətlər sülhün real faydalarını gündəlik həyatlarında hiss etməyə başlasalar, qarşıdurmaya qayıdış çağırışlarının ictimai dəstək qazanması da çətinləşəcək. Ona görə də “Sülh körpüsü” çərçivəsində keçirilən müzakirələr sülhün ictimai qəbulunu genişləndirmək, tərəflər arasında yaranmış imkanları möhkəmləndirmək və siyasi razılaşmaların uzunmüddətli nəticələrə çevrilməsinə dəstək vermək potensialına malikdir.

“Sülh körpüsü” təşəbbüsü çərçivəsində 6 tematik komitə fəaliyyət göstərəcək

Yeri gəlmişkən, “Sülh körpüsü” təşəbbüsünün əlaqələndiricisi, Cənubi Qafqaz Tədqiqatları Mərkəzinin direktoru Fərhad Məmmədov bildirib ki, “Sülh körpüsü” təşəbbüsü çərçivəsində 6 tematik komitə fəaliyyət göstərəcək. “Əlbəttə, əgər artıq beşinci görüş keçirilirsə və görüşlərimizin hər raundundan sonra iştirakçıların sayı artırsa, cəmiyyətlərimizin bu istiqamətə marağı çoxalırsa, bu, nailiyyətdir. Yəni dialoqun özünün aparılması, fikir mübadiləsi, bu prosesə cəlb olunan insanların sayının artması - bu, artıq nailiyyətdir”, - o qeyd edib. F.Məmmədovun sözlərinə görə, təşəbbüsün iştirakçıları artıq birgə iş və öz cəmiyyətlərində qarşılıqlı fəaliyyət təcrübəsinə malikdirlər. O vurğulayıb ki, Azərbaycan və Ermənistan cəmiyyətləri bir-birindən fərqlənir, fərqli gözləntilərə və dünya qavrayışına malikdirlər, buna görə də sülh gündəliyi kontekstində işləyərkən bu spesifikliyi nəzərə almaq lazımdır.

“Fikir ayrılığı yaradan mövzulara gəlincə, onlar, sözsüz ki var. Bu, çoxsaylı məsələləri əhatə edir. Lakin biz bütün bu mövzular üzrə dürüst və səmimi dialoq aparırıq. Cəmiyyətimizi nəyin narahat etdiyini, hansı mövzuların, səbəblərin olduğunu və nəyə nail ola biləcəyimizi göstərməyə çalışırıq. Bu problemlərin obyektiv və subyektiv səbəbləri var. Əgər, biz bütün problemləri qısa müddətdə həll edə bilmiriksə, istiqamətində konkret addımlar ata biləcəyimiz məsələlərə yönəlirik”, - o bildirib.

F.Məmmədov həmçinin qeyd edib ki, budəfəki görüşün fərqli cəhəti ümumi müzakirələrlə yanaşı, ekologiya, iqtisadiyyat, infrastruktur, humanitar əməkdaşlıq və media məsələlərini əhatə edən 6 tematik komitənin fəaliyyət göstərəcəyidir.

Dialoqun koordinatoru, Ermənistan Şurasının prezidenti Areq Koçinyan isə bildirib ki, Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətləri arasındakı dialoq iki ölkənin xalqlarının sülh və həmrəylik şəraitində yaşaya biləcəyi yeni reallıqların yaradılmasına yönəlib.

Koçinyanın sözlərinə görə, iki ölkənin vətəndaş cəmiyyətləri arasındakı qarşılıqlı fəaliyyət danışıqlar yox, dialoq xarakteri daşıyır, buna görə də hazırkı mərhələdə konkret ölçülə bilən nəticələrdən danışmaq mümkün deyil. “Bu dialoq vasitəsilə biz onilliklər ərzində münaqişə, düşmənçilik və nifrət nəticəsində formalaşmış reallığı aradan qaldırmaqdan daha çox, keçmişlə yanaşı yeni normalıq, yeni reallıqlar və yeni tarix yaratmağa çalışırıq. Biz gələcəyə, cəmiyyətlərimizin sülh və qarşılıqlı anlaşma şəraitində qonşu kimi yaşaya biləcəyi reallıqların yaradılmasına yönəlmiş sülh gündəliyini müzakirə edirik”, - o bildirib.

Koçinyan həmçinin bildirib ki, növbəti işlər komitələr çərçivəsində həyata keçiriləcək və onların adları, eləcə də fəaliyyət istiqamətləri barədə məlumat sonrakı press-relizlərdə təqdim olunacaq.

Ermənistan üçün seçim...

Cənubi Qafqazın gələcək inkişafı baxımından Azərbaycan və Ermənistan arasında münasibətlərin hansı istiqamətdə inkişaf edəcəyi bütün region üçün əhəmiyyətlidir. Münaqişə və qarşıdurma mühitinin iqtisadi, siyasi baxımdan yaratdığı məhdudiyyətlər artıq yeni regional reallıqlar qarşısında öz aktuallığını itirməlidir. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən sonra regionda yaranmış yeni geosiyasi şərait İrəvanı seçim qarşısında qoyur - ya keçmişin ziddiyyətləri üzərində revanşist marağın qaranlıq dalanında itəcək, ya da yeni əməkdaşlıq imkanlarından istifadə edəcək. Azərbaycanın yanaşması regionda təhlükəsizliyin, sabitliyin və iqtisadi inkişafın təmin olunmasına əsaslanır. Bu hədəflərə çatmaq üçün Ermənistanın da konstruktiv mövqe nümayiş etdirməsi, sülh gündəliyinə sadiqliyini konkret addımlarla təsdiqləməsi vacibdir.

P.İSMAYILOV

Ana təbiətin qorunmasına davamlı qayğı

Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihə çərçivəsində “agac.az” mobil tətbiqi istifadəyə verilib



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən yaşıllıqların inventarlaşdırılması layihəsi çərçivəsində “agac.az” mobil tətbiqi istifadəyə verilib. IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2022-ci ildən birgə həyata keçirilən layihə çərçivəsində hazırlanmış mobil tətbiq vətəndaşlara ağaclar haqqında məlumat əldə etmək və onların mühafizəsində birbaşa iştirak etmək imkanı verir.

Xoş mərama əsaslanan fəaliyyət...

Ekoloji risklərin artdığı indiki şəraitdə yaşıllıqların qorunması naminə hökumətlər və cəmiyyətlər səviyyəsində davamlı və kordinasiyalı fəaliyyətlər mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın ana təbiətə qayğının artırılmasını hədəfləyən təşəbbüsləri təqdirəlayiqdir.

Leyla Əliyevanın xoş mərama əsaslanan ekologiyanın və ətraf mühitin qorunması istiqamətindəki fəaliyyəti əsasən 2011-ci ildə təsis etdiyi IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyi çərçivəsində həyata keçirilir. Qısa müddətdə böyük populyarlıq qazanan təşkilat “Bir planet - bir gələcək” şüarı ilə fəaliyyət göstərir. Qurum biomüxtəlifliyin qorunması, yaşıllaşdırma istiqamətlərində genişmiqyaslı layihələr həyata keçirir. O cümlədən gənclərin ekoloji maarifləndirilməsi də təşkilatın əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Bu çərçivədə indiyədək IDEA tərəfindən “Böyük beşlik”, reintroduksiya, heyvanların mühafizəsi və reabilitasiyası proqramları üzrə layihələrin reallaşdırılmasında böyük uğurlar qazanılıb. Leyla Əliyevanın təşəbbüsləri sayəsində meşələrimizdə Qafqazda nəsli kəsilmək təhlükəsi ilə üzləşən Qafqaz bəbiri, ceyran, qonur ayı, boz canavar və imperator qartalı kimi nadir fauna növlərinin populasiyası davam edir. Ölkə ərazisində sahibsiz heyvanlar üçün sığınacaqlar yaradılıb. Eləcə də respublikamızda sayı azalmış və ya nəsli kəsilmiş növlərin təbiətə qaytarılması məqsədilə ceyranların və Qafqaz zubrlarının tarixi məskənlərinə (o cümlədən Şirvan, Korçay və Şahdağ milli parklarına) köçürülməsi və artırılması həyata keçirilir.

Həmçinin yaşıllaşdırma və şəhər ekologiyası Leyla Əliyevanın rəhbəri olduğu IDEA İctimai Birliyinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Leyla Əliyevanın iştirakı ilə təmizlik aksiyalarının, ağacəkmə kampaniyalarının keçirilməsi artıq ənənə halını alıb. İndiyədək IDEA-nın təşəbbüsü ilə paytaxtda və bölgələrdə milyonlarla ağac əkilib. “Hər kağızı bir yarpağa dəyişək” kampaniyası da böyük populyarlıq qazanıb. Bu, kağız tullantılarının toplanaraq təkrar emala yönəldilməsini və bunun müqabilində yeni ağacların əkilməsini təşviq edən sosial-ekoloji layihədir. Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda və regionlarda həyata keçirilən “Bizim həyət” layihəsi sakinləri təbiətin dostuna çevirib. Bu layihə çərçivəsində müxtəlif ünvanlarda çoxmənzilli binaların həyətləri abadlaşdırılır, burada yaşlıların asudə vaxt keçirmələri, uşaqların əylənmələri üçün gözəl şərait yaradılır. Sevindirici haldır ki, abadlıq layihələrinin icrasına sakinlər də könüllü şəkildə dəstək verirlər.

212 mindən çox ağacın hər birinə fərdi QR kodlu nişan vurulub

Hesablamalara görə, hər il dünya miqyasında insanlar tərəfindən kənd təsərrüfatı və digər məqsədlər üçün təxminən 15 milyard ağac kəsilir. Təəssüf ki, ölkəmizdə də yaşıllıqların qanunsuz məhv edilməsi halları baş verir. Bu problemin tam və birdəfəlik həlli üçün ardıcıl və daha ciddi mühafizə və nəzarət tədbirlərinin keçirilməsi zəruridir. IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə səyləri ilə ölkə ərazisində yaşıllıqların qorunması istiqamətində ardıcıl tədbirlər, o cümlədən ağacların qanunsuz kəsilməsi və məhv edilməsinin qarşısını almaq məqsədilə “Ağacların kəsilməsinə yox!” proqramı, yaşıllıqların bərpası və genişləndirilməsi istiqamətində “Yaşıl Marafon”, “Yanğından Yaşıllığa” və digər layihələr həyata keçirilir.

Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən yaşıllıqların inventarlaşdırılması layihəsi çərçivəsində indiyədək ölkə üzrə 212 mindən çox ağacın hər birinə fərdi QR kodlu nişan vurulub. Nişanlama zamanı ağacların yeri, növü, ölçüləri və mövcud vəziyyəti barədə məlumatlar elektron sistemə daxil edilib.

İstifadəçilər ağacların yerini interaktiv xəritədə görə və QR kodu oxudaraq müvafiq ağacın rəqəmsal məlumat kartına baxa bilərlər.

Ağacın quruduğunu, zədələndiyini və ya qulluğa ehtiyacı olduğunu müşahidə edən vətəndaşlar tətbiq vasitəsilə fotoşəkil əlavə edərək nazirliyə məlumat göndərə bilərlər. Bu imkan qulluq tələb edən ağacların vaxtında müəyyənləşdirilməsinə, yaşıllıqların mühafizəsi üzrə görülən işlərin şəffaflığının artırılmasına və bu sahədə ictimai nəzarətin gücləndirilməsinə şərait yaradır.

Rəqəmsal uçotun interaktiv xəritə və ictimai iştirak imkanları ilə birləşdirilməsi şəhər yaşıllıqlarının idarə olunması üzrə qabaqcıl beynəlxalq təcrübəyə uyğundur. Sistemdə toplanan məlumatlar gələcəkdə süni intellektdən istifadə etməklə ağacların vəziyyətindəki dəyişiklikləri təhlil etmək, riskləri erkən müəyyənləşdirmək və qulluq tədbirlərini planlaşdırmaq üçün əsas yaradır.

Mübariz ABDULLAYEV

İqtisadi münasibətlərdə yeni mərhələ

Azərbaycan-Litva dəyirmi masasında iqtisadi-ticarət-investisiya əməkdaşlığına dair anlaşmalar əldə olunub

Bakıda Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi və Litva Sənayeçilər Konfederasiyasının birgə təşkilatçılığı ilə Azərbaycan-Litva dəyirmi masası keçirilib. Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, tikinti, sənaye, energetika, logistika, nəqliyyat, İKT, maliyyə, turizm, ticarət və xidmət sektorlarında fəaliyyət göstərən 30-dan çox şirkətin nümayəndəsi iştirak edib. İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev isə Azərbaycan və Litva arasında ticarət və investisiya əməkdaşlığının genişləndirilməsi, iqtisadiyyatın müxtəlif sahələrində birgə layihələrin həyata keçirilməsi üçün geniş imkanların olduğunu bildirib. O, Litva şirkətlərini Azərbaycanın investisiya imkanlarından yararlanmağa, birbaşa biznes əlaqələrini gücləndirməyə və əməkdaşlığı konkret layihələrlə genişləndirməyə dəvət edib.

Dəyirmi masa çərçivəsində hər iki ölkənin investisiya imkanlarına dair təqdimatlar keçirilib, sahibkarların birbaşa görüşləri təşkil edilib.

Qarşılıqlı investisiyaların təşviqi üçün mühüm fürsət

Azərbaycan ilə Litva arasında iqtisadi əlaqələr ticarətin şaxələndirilməsi, qarşılıqlı investisiyalar, enerji təhlükəsizliyi və regional bağlantıların inkişafı üzərində qurulub. Tərəflər münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək və iqtisadi əməkdaşlığı konkret layihələrlə genişləndirmək niyyətindədir. Litvanın xarici işlər naziri Kestutis Budrys tərəflər arasında imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qarşılıqlı əməkdaşlığın gələcək istiqamətlərini müəyyənləşdirən mühüm hadisə kimi dəyərləndirib. Qeyd edib ki, sənaye və kommunikasiya, “yaşıl enerji” şəbəkələri Litva şirkətlərinin öz investisiyalarını şaxələndirmək üçün yaxşı fürsət yaradır. Eləcə də Litvanın Balkanlardakı strateji logistika mövqeyi və Avropa İttifaqı bazarına çıxış üçün körpü rolunu oynaması Azərbaycan şirkətləri üçün perspektivlər açır.



Azərbaycanın Avropanın enerji bağlantılarının inkişafındakı rolu və qaz təchizatının şaxələndirilməsinə, enerji təhlükəsizliyinin gücləndirilməsinə verdiyi mühüm töhfələr də Litva üçün xüsusi əhəmiyyət daşıyır. Rəsmi Vilnüs münasibətləri ən yüksək səviyyəyə çatdırmaqla enerji və nəqliyyat bağlantılarında ölkəmizin yaxın tərəfdaşı olmağı düşünür.

Ümumilikdə, tərəflər arasında iqtisadi-ticarət-investisiya sahələrində əməkdaşlığın artırılmasına dair anlaşmalar əldə olunub.

Rəqəmsal texnologiyalar və E-hökumət sahəsində əməkdaşlıq

Azərbaycan və Litva rəqəmsal texnologiyalar, innovasiya, kibertəhlükəsizlik və elektron hökumət sahələrində ikitərəfli əlaqələr qurub, Litvanın dövlət xidmətlərinin rəqəmsallaşdırılması sahəsindəki qabaqcıl təcrübəsi Azərbaycanın müvafiq qurumları ilə mütəmadi olaraq bölüşülür. Azərbaycan Kosmik Agentliyinin (Azərkosmos) Kosmik Akademiyası ilə mübadilələr mövcuddur. Tərəflər Avropa İttifaqının rəqəmsal inkişaf proqramları çərçivəsində də fəal əməkdaşlıq edir. Ölkəmiz süni intellekt sahəsində də bu ölkə ilə əməkdaşlıq quraraq müasir rəqəmsal innovasiyaların yeni modellərin sənayeyə, elm və təhsilə gətirilməsinə xüsusi diqqət yetirir. Bu sahədə ən unikal layihələrdən biri hesab edilən “E-Twinning” layihəsi çərçivəsində ortaq təhsil layihələrinin yaradılması süni intellekt sahəsində şagirdlərin proqramlaşdırma bacarıqlarının inkişafına və yeni texnologiyalar üzrə biliklərinin formalaşmasında müstəsna rol oynayacaq. Eləcə də Litvanın Vilnüs Gediminas Texniki Universiteti ilə Azərbaycan Texniki Universiteti arasında energetika, nəqliyyat, telekommunikasiya, kibertəhlükəsizlik, kompüter mühəndisliyi və iqtisadiyyat istiqamətində birgə tədris, tədqiqat imkanlarının qurulması planlaşdırılır.

Beləliklə, Azərbaycan- Litva əlaqələrinin strateji tərəfdaşlıq mərhələsinə yüksəlməsi üçün güclü iqtisadi-hüquqi zəmin mövcuddur və bu möhkəm sütunlar hər iki ölkənin iqtisadi əlaqələrinin genişləndirilməsi baxımından mühüm perspektivlər açır.

E.CƏFƏRLİ

SOCAR-dan yeni Anlaşma Memorandumu

“Schneider Electric” şirkəti ilə pilot layihələr həyata keçiriləcək

SOCAR ilə “Schneider Electric” şirkəti arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ilə bağlı Anlaşma Memorandumu imzalanıb. Sənədi SOCAR-ın vitse-prezidenti Fuad Musayev və “Schneider Electric” şirkətinin Türkiyə və Mərkəzi Asiya üzrə klaster prezidenti və baş icraçı direktoru Mehmet Özalp imzalayıblar. Memorandum enerji sektorunda elektrik paylayıcı infrastrukturu, sənayenin avtomatlaşdırılması, rəqəmsallaşma və enerji səmərəliliyi sahələrində tərəfdaşlığın genişləndirilməsini nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində SOCAR aktivlərində elektrik və avtomatlaşdırma sistemlərinin modernləşdirilməsi, enerji istehlakının və avadanlıqların fəaliyyətinin optimallaşdırılması üçün rəqəmsal həllərin tətbiqi, həmçinin seçilmiş obyektlərdə pilot layihələrin qiymətləndirilməsi və həyata keçirilməsi planlaşdırılır.





Enerji sisteminin rəqəmsallaşması

Mövcud saziş Azərbaycanın milli neft korporasiyasının xarici ölkələrdə müasir təchizat və idarəetmə sistemləri qurmaqla qlobal investor kimi artan nüfuzunun daha bir göstəricisidir. Dövlət Neft Şirkəti ilə xarici sərmayədarlar arasında neft, kimya, sənaye, mühəndislik sahəsində əməkdaşlığın fəal mərhələyə daxil olduğunu təsdiqləyir. Həmin investorlardan biri olan “Schneider Electric” enerji paylanması və idarəetməsi, sənaye avtomatlaşdırılması, data mərkəzləri, ağıllı binalar, rəqəmsal həllər, yaşayış məkanlarının elektrikləşdirilməsi və rəqəmsallaşdırılması üzrə ixtisaslaşmış fransız mənşəli qlobal enerji texnologiyaları şirkətidir. Dünyada 100-dən çox ölkədə fəaliyyət göstərən şirkətin 160 min əməkdaşı var və illik gəliri təxminən 40 milyard avro səviyyəsindədir. Şirkətin tərəfdaşlıq etdiyi neft korporasiyaları ilə birgə layihələrin əsas hədəfləri enerji sektorunda rəqəmsal infrastrukturların yaradılmasıdır.

Mərkəzi Asiya-Körfəz regionu ölkələri ilə tərəfdaşlıq

Azərbaycan Dövlət Neft Şirkəti son dövrlərdə bir çox ölkənin nüfuzlu şirkətləri ilə sazişlər imzalayıb ki, həmin sənədlərin əsas məzmunu yeni kəşfiyyat və idarəetmə texnologiyalarının tətbiqini nəzərdə tutur. Belə ki, Neft Şirkəti ilə Birləşmiş Ərəb Əmirliklərinin “Emirates National Oil Company Group” (“ENOC Group”) arasında kəşfiyyat, hasilat, rəqəmsallaşma, ticarət, marketinq istiqamətlərində əməkdaşlığın qurulması, BƏƏ-nin “Dragon Oil” şirkəti arasında imzalanan Anlaşma Memorandumuna əsasən, birgə neft-qaz hasilatında yer alması, eləcə də “Crescent Petroleum” şirkəti ilə enerji sektorunun müxtəlif istiqamətləri üzrə tərəfdaşlıq qlobal etimadın nümunəsidir. SOCAR-ın Misirin Dövlət Neft Şirkəti ilə əməkdaşlığı da bölgənin enerji təchizatı və şaxələnməsi üçün əhəmiyyət daşımaqla, qlobal nüfuzun bir göstəricisidir.

SOCAR və ABŞ-ın SLB şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı “Bahar” və “Qum-Dəniz” yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur. Azərbaycan Dövlət Neft Şirkəti ilə İsrailin “Union Energy” şirkəti arasında Aralıq dənizi hövzəsindəki ən iri qaz yataqlarından biri olan “Tamar” layihəsi üzrə 10 faiz payın əldə edilməsinə dair sazişin imzalanması da mühüm qlobal dəyərin rəmzlərindən biridir.

Ötən ay SOCAR Çin Xalq Respublikasının “China Petroleum & Chemical Corporation” şirkəti ilə Strateji əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıb ki, sənəd şirkətlər arasında satınalma və təchizat zəncirinin idarə olunması sahələrində əməkdaşlığın inkişaf etdirilməsi məqsədi daşıyır.

“Yaşıl enerji”də etibarlı tərəfdaş

Dövlət Neft Şirkəti “yaşıl enerji” sektorunda da etibarlı tərəfdaş kimi qlobal sektorda etimad ünvanlarından birinə çevrilir. Şirkətin törəmə müəssisəsi olan “SOCAR Green” bərpaolunan enerji mənbələri ilə bağlı layihələrdə öz tərəfdaşları ilə “yaşıl kapital”ın cəlb olunması və idarə edilməsində nümunəvi model qurub. Bu fəaliyyət də beynəlxalq reytinqin yüksəldilməsində mühüm amillərdən biridir. Məhz bu amili nəzərə alan “Moody’s” beynəlxalq reytinq agentliyi ötən il Azərbaycanı iqlim dəyişikliyi ilə mübarizə sahəsində təsirli addımlar atan ölkələrdən biri kimi dəyərləndirib və yeni reytiniqdə bu faktoru da nəzərə alıb.

“Yaşıl enerji” strategiyasının reallaşmasında Avropa və Asiyanın nəhəng investorları ilə anlaşma sənədlərinə imza atan SOCAR-ın nailiyyətləri də bu müsbət nəticənin bir hissəsidir. SOCAR və bp arasında Cəbrayıl rayonunda “Şəfəq” layihəsinin icrasına dair saziş imzalanıb, qlobal investorlar - “Fortescue Future Industries”, “China Gezhouba Group”, “Total Energies”, “Nobel Energy”, “Czech Engineering”, “Baltech” və digər şirkətlərlə bərpaolunan enerji layihələri ilə bağlı əməkdaşlığa başlanılıb.

E.CƏFƏRLİ

Gürcüstandan Avropa Parlamentinə açıq dialoq çağırışı

Rəsmi Tbilisi AP-nin yeni qətnaməsini “yanlış məlumatlara əsaslanan sənəd” kimi dəyərləndirib

Qonşu Gürcüstanla Avropa təsisatları arasında çatlar dərinləşməkdədir. Bunu Avropa Parlamentində (AP) ardarda qəbul edilən və rəsmi Tbilisinin siyasətini pisləyən qətnamələr də təsdiqləyir.

Bugünlərdə AP-də Gürcüstanla bağlı daha bir tənqidi qətnamə təsdiqlənib. Söhbət “Paata Burçuladzenin işi və “Gürcü Arzusu” rejimi dövründə siyasi məhbuslar” adlı sənəddən gedir. Qətnamə 441 lehinə, 47 əleyhinə və 86 bitərəf səslə qəbul edilib.

Sənəd Avropa Parlamentinin siyasi mövqeyini ifadə edir.

AP-nin oxşar məzmunlu qətnamələri

Qeyd etdiyimiz kimi, AP-nin qonşu Gürcüstanla bağlı qətnamələri artıq silsilə xarakter daşıyır və əsasən bir-birini təkrarlayır. Bu fikrin təsdiqi kimi, təkcə son iki qətnamənin müqayisəsini aparmaq kifayətdir. Xatırladaq ki, Avropa Parlamenti bundan əvvəl oktyabrın birinci ongünlüyündə “Hakim “Gürcü Arzusu” partiyasının Gürcüstanda müxalifət partiyalarını qadağan etmək cəhdləri” adlı qətnamə qəbul edib. Sənəddə Gürcüstanın müxalifət partiyalarının qadağan edilməsi cəhdləri qətiyyətlə pislənilib və siyasi birliklərə qarşı qaldırılmış konstitusiya iddiasının dərhal geri götürülməsi tələb edilib. Bundan əlavə, qətnamədə Avropa İttifaqına və təşkilata üzv dövlətlərə “Gürcü Arzusu” partiyasının fəxri sədri Bidzina İvanişvili, Baş nazir İrakli Kobaxidze, parlament sədri Şalva Papuaşvili və Tbilisi meri Kaxa Kaladzeyə qarşı sanksiyalar tətbiq etmək çağırışı yer alıb.

AP-də Gürcüstanla bağlı təxminən bir ay ötəndən sonra qəbul edilən qətnamə də eyni ruhda və oxşar məzmundadır. Budəfəki qətnamədə də köhnə narrativlər təkrarlanmaqla Gürcüstan hakimiyyətinin siyasətindən narazılıq ifadə olunub. Belə ki, Avropa Parlamenti ciddi insan hüquqları pozuntularına görə məsul saydığı şəxslərə qarşı məqsədli sanksiyalar və viza qadağaları da daxil olmaqla, Aİ-nin koordinasiyalı cavab tədbirləri görməsi ilə bağlı çağırışını bir daha təkrarlayıb. Sənəddə “Gürcü Arzusu”nun təsisçisi Bidzina İvanişvili, Baş nazir İrakli Kobaxidze, parlament sədri Şalva Papuaşvili və Tbilisi meri Kaxa Kaladze ilə yanaşı, digər yüksək vəzifəli rəsmilərin, hakimlərin, prokurorların, hüquq-mühafizə orqanları əməkdaşlarının adları xüsusi qeyd olunub və onlara qarşı sanksiyaların tətbiqinin zəruriliyi yenidən gündəmə gətirilib.

Avropa Parlamentinin üzvləri Paata Burçuladze, İrakli Nadiradze və Paata Manjgaladzeyə çıxarılan hökmləri pisləyərək, onların və qətnamədə siyasi məhbus və ya “qanunsuz saxlanılan” kimi müəyyən edilən bütün şəxslərin dərhal və qeyd-şərtsiz azadlığa buraxılmasını tələb ediblər.

Sənəddə Gürcüstan hakimiyyəti beynəlxalq ədalətli məhkəmə araşdırması standartlarına əməl etməyə, Burçuladzeyə müvafiq tibbi yardım və hüquqi dəstək göstərməyə, onun ailəsi ilə müntəzəm əlaqəsini təmin etməyə və maneəsiz konsulluq çıxışına şərait yaratmağa çağırılır.

AP üzvləri etirazçılara qarşı həddindən artıq güc tətbiqi, qorxutma və pis rəftar iddialarının müstəqil şəkildə araşdırılmasını da tələb edərək, məsul şəxslərin cavabdehliyə cəlb olunmasının vacibliyini vurğulayıblar.



Avropalı parlamentarilər həmçinin bəzi Aİ üzv dövlətlərini Gürcüstanda demokratik geriləməyə görə məsul hesab etdikləri şəxslərə qarşı tədbir görməməkdə tənqid ediblər.

Rəsmi Tbilisinin kəskin etirazı

Qətnamənin məzmunundakı bir məqam xüsusi diqqət çəkir. Sənəddə İnsan Hüquqları üzrə Avropa Konvensiyasına və əsas azadlıqlara hörmətin Aİ üzvlüyünə doğru irəliləyiş üçün mühüm şərt olduğu ayrıca vurğulanır. Qətnamədə növbəti dəfə yer alan müddəalar o reallığı ortaya qoyur ki, Avropa təsisatları Gürcüstanın Avropa İttifaqına inteqrasiya siyasətini bu ölkəyə qarşı təzyiq alətinə çeviriblər. Yəni rəsmi Tbilisi ölkəsinin gələcəyini Aİ-də görürsə, milli maraqlardan geri dönməli və Brüsseldən gələn direktivləri qeyd-şərtsiz qəbul etməlidir.

Xatırladaq ki, Brüssellə Tbilisi arasında narazılıqların daha güclü dalğası 2024-cü ilin may ayında Gürcüstan parlamentinin hakim partiyanın təşəbbüsü əsasında “Xarici təsirin şəffaflığı haqqında” qanun qəbul edilməsi ilə başlayıb. Bəhs olunan sənəd ölkədə fəaliyyət göstərən və gəlirlərinin 20 faizindən çoxunu xarici mənbələrdən əldə edən qeyri-hökumət təşkilatlarını (QHT) və media qurumlarını “xarici dövlətin maraqlarını həyata keçirən təşkilat” kimi reyestrdə qeydiyyatdan keçməyə və illik maliyyə bəyannaməsi təqdim etməyə məcbur edən qanunvericilik aktıdır.

Gürcüstan hakimiyyəti yeni qanunun qəbul edilməsini hesabatlılığın və şəffaflığın təmin edilməsinin zəruriliyi ilə əlaqələndirir. Brüssel isə rəsmi Tbilisinin izahlarını məqbul saymayaraq, bu və digər qanunların Rusiyanın təsiri altında qəbul edildiyini bildirir və onların ləğvini istəyir. Təbii ki, rəsmi Tbilisi ölkənin milli maraqlarını əsas gətirməklə Brüsselin ittihamlarını rədd edir.

AP-nin son qətnaməsinə Gürcüstanın reaksiyası da kəskin olub. Belə ki, Gürcüstan Xarici İşlər Nazirliyi (XİN) Avropa Parlamentinin ölkə ilə bağlı qəbul etdiyi yeni qətnaməni yanlış məlumatlara əsaslanan və ikitərəfli münasibətlərə zərər vuran sənəd kimi qiymətləndirib. Məsələ ölkənin xarici işlər nazirinin birinci müavini Giorgi Zurabaşvili ilə Avropa İttifaqının ölkədəki nümayəndəliyinin rəhbəri Pavel Herçinski arasında keçirilən görüşdə müzakirə olunub.

Gürcüstan XİN-in məlumatına görə, Zurabaşvili AP-də Gürcüstanla bağlı aparılan debatlara və noyabrın 26-da qəbul edilən yeni qətnaməyə etirazını bildirib.

Gürcüstan XİN-in bununla əlaqədar yaydığı bəyanatında Zurabaşvilinin Avropa Komissiyasının nümayəndəsinin açıqlamasına da münasibət bildirdiyi qeyd olunub. Nazir müavini Aİ-nin “özbaşına saxlanılan” hesab etdiyi şəxslərin ad və soyadlarının açıqlanmasını tələb edib.

Bəyanatda vurğulanıb ki, Gürcüstan tərəfi çoxsaylı müraciətlərinə baxmayaraq, indiyədək Aİ-dən həmin şəxslərlə bağlı konkret məlumat almayıb. XİN hesab edir ki, müvafiq hüquqi qiymətləndirmə Gürcüstan məhkəmələrinin qərarları ilə müəyyən olunub və Avropa İttifaqının ittihamları əsassızdır.

Görüşdə Gürcüstan tərəfi ölkənin Avropa İttifaqına üzvlük prosesinə sadiqliyini bir daha bəyan edib və Tbilisi ilə Brüssel arasında açıq dialoqun vacibliyini vurğulayıb.

Mübariz FEYİZLİ

Növbəti görüş...

Alen Simonyan Azərbaycana niyə gəlir?

Azərbaycanın 44 günlük Vətən müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələrinə uyğun olaraq yaratdığı reallıqlar onilliklər boyunca Ermənistanın işğalçılıq siyasətindən, müharibə təhdidlərindən əziyyət çəkən Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi, qarşıdurmaların əməkdaşlıqla əvəzlənməsi üçün münbit zəmin formalaşdırıb. Hazırda region heç vaxt olmadığı qədər sülhə yaxındır. Bu məqsədlə, xüsusilə ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə əldə olunan mühüm razılaşmalara uyğun olaraq hər iki ölkədə dövlətlər və hökumətlər tərəfindən ardıcıl tədbirlər görülür.

Etimad mühitinin formalaşdırılması üçün...

Bu gün regionda sülh quruculuğu prosesindən söhbət açılırsa, burada qalib Azərbaycanın həlledici rolunu xüsusi qeyd etmək lazımdır. Azərbaycan iki ölkə arasında uzun sürən münaqişənin əsas səbəbini kənardan dəstək almadan sırf öz gücünə aradan qaldırmağa nail oldu və dərhal da münasibətlərdə düşmənçiliyə son qoymaq istəyini - sülh təşəbbüsünü gündəmə gətirdi. Sonradan müxtəlif mərhələlərdən keçməklə, ayrı-ayrı platformalarda müzakirələri aparılmaqla Vaşinqton razılaşmalarınadək irəliləyən sülh prosesinin təməlində dayanan baza sənədi məhz Azərbaycanın müharibə başa çatandan sonra Ermənistana ünvanladığı beş bənddən ibarət sülh paketi olub. Qalib Azərbaycan özünün həqiqətlərini, regionda yaratdığı reallıqları dünyaya qəbul etdirməyə nail oldu. Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə liderlərin verdiyi birgə Bəyanat, sülh sazişinin paraflanması bunun de-yure təsdiqlənməsidir.

Artıq hər iki cəmiyyət sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur. Belə ki, Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir. Eyni zamanda, cəmiyyətləri sülhə hazırlamaq üçün vətəndaş cəmiyyətlərinin nümayəndələri qarşılıqlı olaraq səfərlər edirlər. Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyəti təsisatlarının iştirakı ilə yaradılan “Sülh körpüsü” platforması etimad quruculuğu prosesində fəal rol almağa başlayıb. Artıq hər iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin bir neçə dəfə qarşılıqlı səfərləri baş tutub. Bu da təsadüfi deyil. Çünki sülh prosesi dövlətlər və liderlər tərəfindən irəli aparıldığı kimi, cəmiyyətlər də barışığa hazırlanır. Xalqlar arasında etimad quruculuğu davamlı sülh üçün vacib şərtdir. Dünyada uzanan müharibələr çox olub. Ancaq bu müharibələr nə qədər ağır fəsadlar versə də, zamanla yaraların üstü örtülüb və dövlətlər, cəmiyyətlər, xalqlar arasında əlaqələr qurulub. Azərbaycan və Ermənistan eyni coğrafiyanı bölüşürlər. Bu iki dövlətdən birinin qonşuluq coğrafiyasını dəyişmək imkanı sıfıra bərabərdir. Vurulan yaralardan sonra barışıq mühiti yaratmaq çətin görünsə də, əbədi düşmənçilik də istisnadır. Bu mənada, Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətlərinin təmsilçilərinin görüşlərinin keçirilməsi nikbinlik doğurur.

Nələr müzakirə olunacaq?

Digər tərəfdən, vətəndaş cəmiyyəti ilə yanaşı, dövlət və hökumət nümayəndələrinin də qarşılıqlı səfərləri sülh prosesində vacib amildir. Xatırladaq ki, Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan qarşılıqlı olaraq səfərlər ediblər. Bugünlərdə isə erməni mediası Ermənistan Təhlükəsizlik Şurasının katibi Alen Simonyanın yaxın vaxtlarda Azərbaycana səfər edəcəyi barədə məlumat yayıb. Alen Simonyan jurnalistlərə açıqlamasında məlumatı təsdiqləyib və səfərin dekabrın əvvəlində nəzərdə tutulduğunu deyib. Onun sözlərinə görə, səfər Bakıya olmayacaq: “Bu, ehtimal ki, ya Gəncə, ya da başqa bir şəhərdir, amma Bakı deyil”. Simonyan bildirib ki, Azərbaycana nəzərdə tutulan səfər zamanı ikitərəfli münasibətlərlə bağlı məsələlər müzakirə olunacaq. O qeyd edib ki, dekabr ayında Azərbaycana nəzərdə tutulan səfər zamanı müzakirə olunacaq məsələlərin gündəliyi əvvəlki görüşlərin gündəliyindən əhəmiyyətli dərəcədə fərqlənməyəcək: “Bunlar mütəmadi olaraq müzakirə etdiyimiz məsələlərdir, ona görə də gündəlik çox da fərqlənməyəcək. Həmkarımız Ermənistanda olub, indi isə növbə bizdədir. Mən ora gedəcəyəm və gələcək görüş üçün də hazırlıqlar görəcəyik. Belə görüşlər zamanı biz geniş mövzu dairəsini əhatə edirik”.



Göründüyü kimi, bu, A.Simonyanın ölkəmizə cavab səfəri kimi də dəyərləndirilə bilər. Xatırladaq ki, bu il iyunun 14-də Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Ermənistana səfər etmişdi. Səfər zamanı Hikmət Hacıyev Dilican şəhərində Ermənistan Təhlükəsizlik Şurasının o vaxtkı katibi Armen Qriqoryanla işgüzar görüş keçirmişdi. Görüş zamanı tərəflər Azərbaycan-Ermənistan sülh gündəliyi ilə bağlı bir sıra məsələləri müzakirə ediblər. Regionda davamlı sülhün və sabitliyin təşviqinə yönəlmiş səylər çərçivəsində ikitərəfli dialoqun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb. Tərəflər, həmçinin iki ölkənin vətəndaş cəmiyyətləri arasında etimad quruculuğu tədbirləri barədə fikir mübadiləsi aparıblar. Hikmət Hacıyev və Armen Qriqoryan işçi səviyyəsində təmasların davam etdirilməsi barədə qərar qəbul edərək növbəti görüşün Azərbaycanda keçiriləcəyini təsdiqləmişdilər. Bu baxımdan, Ermənistan Təhlükəsizlik Şurasının indiki katibi Simonyanın ölkəmizə gözlənilən səfəri cavab xarakteri daşıyır.

Ermənistanda konstitusiya dəyişiklikləri diqqət mərkəzində...

Lakin A.Simonyanın səfər zamanı aparılacaq müzakirələrin əvvəlkilərdən fərqlənməyəcəyini deməsi heç də əsaslı deyil. Çünki bir neçə gün əvvəl Ermənstanda yeni konstitusiya layihəsinin mətninin açıqlanması bu ölkədə siyasi gərginliyi artırıb. Faktiki olaraq, parlament müxalifətinin həmin layihənin referenduma çıxarılmaması üçün real təsir imkanı var. Referendumla bağlı qərarın verilməsi üçün parlamentdə ümumi deputat sayının üçdə ikisinin, yəni 105 deputatdan azı 70-nin dəstəyi tələb olunur. Halbuki hakim Vətəndaş Müqaviləsi Partiyasının parlamentdə 64 mandatı var. 6 səsə ehtiyac var, amma müxalifət bloku bu səsləri vermək fikrində deyil. Belə vəziyyət isə sülh prosesi ilə bağlı əlavə suallar yaradır.

Çünki Azərbaycan üçün Ermənistan konstitusiyasında dəyişiklik edilməsi, ölkəmizə qarşı ərazi iddialarının bu sənəddən çıxarılması prinsipial xarakter daşıyır. Əgər bu dəyişiklər baş verməsə, sülh sazişi imzalanmayacaq. Erməni tərəfi anlamalıdır ki, regionda sabitliyi və sülhü təmin etməyin yeganə yolu qonşu ölkələrin suverenliyinin və ərazi bütövlüyünün tanınmasıdır. Rəsmi İrəvan həqiqətən sülhün tərəfdarıdırsa, əməli fəaliyyəti ilə bunu nümayiş etdirməlidir. Əks halda, gələcək proseslər məhz Ermənistanın ziyanına olacaq. Bu baxımdan, A.Simonyan ölkəmizə səfəri zamanı bu məsələrə aydın cavab verməlidir. Ona görə də, gözlənilən səfər əvvəlki görüşlərdən müəyyən qədər fərqlənə bilər.

Nardar BAYRAMLI

Əlcəzair Fransanı ittiham edib



Fransa hakimiyyəti 2025-ci ilin aprelindən bu ölkədə həbsdə saxlanılan Əlcəzairin konsulluq əməkdaşına qarşı pis rəftarda ittiham olunub.

AZƏRTAC xəbər verir ki, ittihamı Əlcəzairin xarici işlər naziri Əhməd Attaf mətbuat konfransında səsləndirib. Nazir konsulluq əməkdaşının pis şəraitdə saxlanıldığını və həbsxanada qeyri-insani rəftara məruz qaldığını bildirib.

Əhməd Attaf qeyd edib ki, konsulluq əməkdaşının saxlanılması son dərəcə zorakı əməliyyat çərçivəsində həyata keçirilib.

Nazir vurğulayıb ki, hadisə Fransanın xarici işlər naziri Jan-Noel Barronun Əlcəzairə səfərindən iki gün sonra baş verib. Həmin səfər Fransanın Prezidenti Emmanuel Makronun iki ölkə arasında münasibətlərdə gərginliyi azaltmaq istiqamətində həyata keçirdiyi səylər çərçivəsində təşkil olunmuşdu.

Attaf, həmçinin Fransada azadlıqdan məhrumetmə yerlərinə nəzarət üzrə baş nəzarətçinin hesabatında Əlcəzairin konsulluq əməkdaşına qarşı pis rəftar hallarının sənədləşdirildiyini açıqlayıb.

Fransa hakimiyyəti Əhməd Attafın açıqlamalarına hələlik münasibət bildirməyib.

Əlcəzairin rəsmi APS xəbər agentliyinin məlumatına görə, konsulluq əməkdaşı "İsmail R." 2025-ci il aprelin 8-də Fransa təhlükəsizlik xidmətinin əməkdaşları tərəfindən küçədə saxlanılıb və o, həbs edilib. Onun həbs müddəti 2026-cı il martın 25-də uzadılıb.

Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistan müdafiə əməkdaşlığını müzakirə edir



Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistandan olan nümayəndə heyətləri Qarşılıqlı Müdafiə üzrə Məkkə Sazişinin icrasını və hərbi koordinasiyanın gücləndirilməsini müzakirə etmək üçün bu gün İslamabada səfər ediblər.

AZƏRTAC İraq Xəbər Agentliyinə (İNA) istinadla bildirir ki, nümayəndə heyətlərinin tərkibinə xarici işlər və müdafiə nazirləri, eləcə də yüksəkrütbəli hərbi rəsmilər daxildir.

Qarşılıqlı Müdafiə üzrə Məkkə Sazişi çərçivəsində yaradılmış Strateji Siyasi və Müdafiə Komitəsinin iclasında sənədin icrası istiqamətində əldə olunan irəliləyiş, habelə iştirakçı ölkələr arasında müdafiə sahəsində əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi mexanizmləri müzakirə olunacaq.

Pakistanın müdafiə naziri Xəvacə Asif bildirib ki, Səudiyyə Ərəbistanı ilə husilərin "Ənsar Allah" hərəkatı arasında davam edən qarşıdurma da görüşlərin gündəliyinə daxil ediləcək.

Nazir vurğulayıb ki, imzalanmış sazişə əsasən, Səudiyyə Ərəbistanına qarşı istənilən təhdid Pakistan və Türkiyəyə qarşı təhdid hesab olunur.

Aİ-nin 2028-2034-cü illər üzrə büdcəsi ətrafında fikir ayrılıqları qalır



Avropa İttifaqına (Aİ) üzv ölkələr qurumun 2028-2034-cü illəri əhatə edən növbəti yeddiillik büdcəsinin üç əsas istiqaməti üzrə razılıq əldə edə bilməyiblər. Müzakirələrin dekabr ayında davam etdirilməsi nəzərdə tutulur.

AZƏRTAC xəbər verir ki, bunu Avropa Şurasının Prezidenti Antonio Koşta Aİ sammitinin yekunlarına dair mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, fikir ayrılıqları büdcənin ümumi həcmi, vəsaitlərin ayrı-ayrı sahələr üzrə bölgüsü və yeni maliyyə mənbələrinin müəyyənləşdirilməsi ilə bağlıdır. Ölkələrin bir qismi büdcənin azaldılmasını, digərləri isə maliyyələşmənin artırılmasını tələb edir.

Antonio Koşta kənd təsərrüfatına ayrılan vəsaitlərin azaldılmasına da əksər üzv ölkələrin qarşı çıxdığını vurğulayıb.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen isə yeni yeddiillik büdcənin təsdiqinin çətin proses olacağını bildirib.

Qeyd edək ki, müzakirəyə çıxarılan kompromis büdcə planı 1,52 trilyon avro təşkil edir. Bu məbləğ Avropa Komissiyasının ilkin təklifindən 204 milyard avro azdır. Ölkələr arasında hərbi xərclərin artırılması məsələsində isə fikir ayrılığı yoxdur. Yeni plan çərçivəsində müdafiə xərclərinin əvvəlki yeddiillik dövrlə müqayisədə təxminən 10 dəfə artırılması nəzərdə tutulur.

Tbilisinin Avropa dilemması: Gürcüstan Brüsseldən uzaqlaşır, yoxsa siyasi kursunu dəyişir?

Avropa Komissiyasının 4 noyabrda açıqlanmış 2026-cı il Genişlənmə Paketi Gürcüstanın üzvlük prosesinin faktiki dayandığını bir daha təsdiqləyib

əvvəli ötən sayımızda

Məsələnin ekspert təhlili baxımından diqqətəlayiq tərəflərindən biri Gürcüstanın Avropa istiqamətindən uzaqlaşmasının yalnız daxili siyasi böhranla izah edilməməsidir. Ölkənin tanınmış politoloqu, Tbilisi Dövlət Universitetinin professoru və Georgian Institute of Politics (GIP) analitik mərkəzinin qurucusu Korneli Kakachia bu prosesi daha geniş geosiyasi kontekstdə qiymətləndirir. 2026-cı ilin avqustunda "Robert Bosch Academy" tərəfindən dərc edilmiş müsahibəsində Kakachia Gürcüstanın Qərbdən uzaqlaşmasının ölkənin strateji mövqeyinə və regiondakı gələcəyinə təsir etdiyini bildirib. O, hökumətin davranışını "gizli uyğunlaşma" - "bandwagoning by stealth" anlayışıyla izah edir: onun fikrincə, hakimiyyətin müəyyən addımları Rusiyanın maraqlarına uyğun nəticələr yarada bilər, lakin Gürcüstan cəmiyyətinin Avropa yönümlü mövqeyi bu kursun tam reallaşmasına mane olan mühüm amildir. Kakachia Gürcüstanın Avropa üçün yalnız demokratik tərəfdaş deyil, həm də Cənubi Qafqaz və Qara dəniz regionunda strateji əhəmiyyətə malik ölkə olduğunu vurğulayır. Onun fikrincə, Avropa İttifaqı Gürcüstan cəmiyyətinin Avropa arzularını hakimiyyətin siyasətindən fərqləndirməli və ölkəylə uzunmüddətli əməkdaşlıq imkanlarını qoruyub saxlamalıdır. Qeyd etmək lazımdır ki, Kakachia bu fikirləri hazırda "Robert Bosch Academy"-nin 2026-cı ilin sentyabrı - 2027-ci ilin martı aralığındakı dövr üçün nəzərdə tutulmuş proqramının iştirakçısı kimi təqdim edir; onun yaratdığı Georgian Institute of Politics isə Gürcüstandakı vətəndaş cəmiyyətinə təzyiqlər fonunda fəaliyyətini dayandırıb. Bu fakt ekspertin qiymətləndirməsini daha da əhəmiyyətli edir: söhbət Gürcüstanın siyasi sistemini və Avropa inteqrasiyasını uzun müddət araşdırmış, ölkənin daxilindən çıxış edən politoloqun təhlilindən gedir.

Digər mühüm ekspert qiymətləndirməsi ABŞ-da fəaliyyət göstərən Center for European Policy Analysis (CEPA) analitik mərkəzinin materiallarında əks olunur. CEPA-nın Gürcüstan üzrə təhlillər hazırlayan qeyri-rezident tədqiqatçısı və Tbilisidəki Caucasus University-nin qonaq müəllimi İrina Arabidze 2026-cı ilin yanvarında dərc edilmiş "Europe Should Exploit Georgia's Regime Ructions" adlı məqaləsində Gürcüstan hakim elitasında baş qaldırmış ziddiyyətlərin Avropa üçün yeni siyasi imkanlar yarada biləcəyini irəli sürüb. 2026-cı ilin noyabrında CEPA-da dərc edilmiş "Georgia - A Step Away From One-Party Rule" adlı təhlilində isə Arabidze müxalifət partiyalarının qadağan edilməsi təşəbbüsünü siyasi rəqabətə qarşı daha geniş təzyiq strategiyasının tərkib hissəsi kimi qiymətləndirir. Onun yanaşmasına görə, Qərbin reaksiyası yalnız ümumi bəyanatlarla məhdudlaşmamalı, demokratik institutların zəiflədilməsinə görə məsuliyyət daşıyan şəxslərə və onların siyasi-iqtisadi dayaqlarına ünvanlanan məqsədyönlü tədbirlərlə müşayiət olunmalıdır. Ancaq belə tədbirlər Gürcüstanın iqtisadiyyatına və əhalisinə zərər vurmamalıdır. Bu yanaşma sanksiyaların məqsədini cəmiyyətə kollektiv təzyiq göstərməkdə yox, siyasi qərarların qəbuluna təsir edən konkret aktorların məsuliyyətini artırmaqda görür. Arabidzenin fikirləri ekspert mövqeyidir və CEPA-nın institusional qərarı kimi təqdim edilməməlidir.

Gürcüstanın Avropaya inteqrasiyasıyla bağlı əsas paradokslardan biri hökumətin rəsmi bəyanatları ilə cəmiyyətin siyasi gözləntiləri arasındakı fərqdir. Baş nazir Kobaxidze Avropa İttifaqına üzvlük niyyətinin qüvvədə qaldığını bildirsə də, hökumətin mübahisəli qanunvericilik təşəbbüslərindən geri çəkilmək istəməməsi Brüssellə münasibətlərin normallaşmasını çətinləşdirir. Digər tərəfdən, Avropa inteqrasiyasını dəstəkləyən cəmiyyətin mövqeyi hökumətin siyasi kursuna qarşı davamlı etirazlarda özünü göstərir.

Korneli Kakachianın təhlilində də məhz bu fərq ön plana çıxır: dövlət hakimiyyətinin siyasətiylə cəmiyyətin strateji seçimi eyni istiqamətdə inkişaf etmir. Bu ziddiyyət Gürcüstanın gələcək siyasi sabitliyi üçün ciddi risk yaradır, çünki Avropa inteqrasiyası yalnız xarici siyasət prioriteti deyil, həm də ölkənin siyasi kimliyi, dövlət institutlarının inkişaf modeli və gələcək nəsillərin iqtisadi-sosial perspektivləri ilə bağlı məsələdir. Bununla yanaşı, Gürcüstanın Avropa İttifaqı ilə münasibətlərində viza rejimi də mühüm siyasi alətə çevrilib. 2026-cı il mart ayının 6-da Avropa Komissiyası Gürcüstanın diplomatik, xidməti və rəsmi pasport sahibləri üçün Şengen zonasına vizasız giriş rejimini 12 ay müddətinə dayandırıb. Bu qərar Avropa İttifaqının yenilənmiş viza dayandırılması mexanizmi çərçivəsində tətbiq edilən ilk tədbir olub. Qərara əsasən, həmin pasport sahibləri 2027-ci il mart ayının 6-dək Şengen zonasına rəsmi səfərlər üçün viza almalıdırlar. Komissiya bu addımı Gürcüstan hakimiyyətinin demokratiya və fundamental hüquqlar sahəsində götürdüyü öhdəlikləri pozmasıyla əsaslandırıb. Burada vacib hüquqi fərq ondan ibarətdir ki, qərar bütün Gürcüstan vətəndaşlarına şamil edilməyib, adi biometrik pasport sahibləri üçün qısamüddətli vizasız səfər rejimi qüvvədə qalır. Bununla belə, Avropa Komissiyasının noyabr hesabatında hakimiyyətin mövcud kursu dəyişmədiyi təqdirdə, vizasız rejimin daha geniş miqyasda risk altına düşə biləcəyi barədə xəbərdarlıq edilir. Beləliklə, Brüssel bir tərəfdən Gürcüstan vətəndaşlarıyla Avropa arasında əlaqələri qorumağa çalışır, digər tərəfdən dövlət rəsmilərinə münasibətdə məhdudlaşdırıcı tədbirlər tətbiq edir.

Gürcüstanın Avropa perspektivinə təsir edən digər mühüm amil Rusiyadır. 2008-ci ilin avqustunda baş vermiş Rusiya-Gürcüstan müharibəsindən sonra Moskva Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıyıb və həmin ərazilərdə hərbi mövcudluğunu qoruyub saxlayıb. Gürcüstan və beynəlxalq ictimaiyyətin böyük əksəriyyəti bu əraziləri ölkənin tanınmış sərhədləri daxilində hesab edir. Avropa İttifaqı da Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü ardıcıl şəkildə dəstəkləyir. Bu ilin iyul ayının 1-də Cenevrə Beynəlxalq Müzakirələrinin 67-ci raundu keçirilib. Gürcüstan Xarici İşlər Nazirliyinin məlumatına görə, müzakirələrdə Rusiyanın 2008-ci il avqustun 12-də imzalanmış atəşkəs sazişinin müddəalarını tam yerinə yetirməsi, məcburi köçkünlərin və qaçqınların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtması məsələləri qaldırılıb. Avropa İttifaqı iyulun 9-da ATƏT-in Daimi Şurasında yaydığı bəyanatda 67-ci raundun keçirilməsini alqışlayıb, lakin əsas məsələlər üzrə ciddi irəliləyişin olmamasından təəssüfləndiyini bildirib. Aİ-nin mövqeyinə görə, güc tətbiq etməmək barədə aydın öhdəlik və təhlükəsizlik vəziyyətini yoxlama mexanizminin yaradılması regionda etimadın bərpası üçün vacibdir.

Rusiya amili Gürcüstanın xarici siyasətində mürəkkəb təhlükəsizlik dilemması yaradır. Bir tərəfdən, ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi Rusiyanın hərbi mövcudluğuyla bağlı ciddi risklərlə üzləşir; digər tərəfdən, Gürcüstan hökuməti Moskva ilə birbaşa hərbi qarşıdurmadan yayınmağa, iqtisadi və siyasi sabitliyi qorumağa çalışdığını bildirir. Hakimiyyətin bu siyasəti tərəfdarları tərəfindən praqmatik və milli maraqlara uyğun yanaşma kimi təqdim olunur. Tənqidçilər isə hesab edirlər ki, təhlükəsizlik arqumenti Avropa və Avroatlantik inteqrasiyadan uzaqlaşmanı əsaslandırmaq üçün istifadə edilə bilməz. Bu mübahisənin geosiyasi əhəmiyyəti ondan ibarətdir ki, Gürcüstan Qara dəniz hövzəsi ilə Cənubi Qafqazı birləşdirən əsas tranzit məkanlarından biridir. Ölkənin ərazisindən keçən nəqliyyat, enerji və logistika marşrutları Avropa ilə Mərkəzi Asiya arasında əlaqələrin inkişafında mühüm rol oynayır. Orta Dəhliz və Transxəzər beynəlxalq nəqliyyat marşrutunun əhəmiyyətinin artması Gürcüstanın strateji mövqeyini daha da gücləndirir. Buna görə də Tbilisinin siyasi kursunda baş verən dəyişikliklər yalnız Gürcüstanın daxili məsələsi deyil, həm də Avropa İttifaqının Qara dəniz və Xəzər hövzəsi üzrə uzunmüddətli maraqlarına təsir edən amildir.

Korneli Kakachianın "Robert Bosch Academy"də dərc olunmuş təhlilində də bu geoiqtisadi məqam xüsusi vurğulanır. Onun fikrincə, Qara dəniz regionu artıq yalnız Rusiya ilə Avropa İttifaqı arasında rəqabət məkanı deyil; burada Çin, İran və körfəz ölkələrinin də iqtisadi və siyasi təsiri artır. Limanlar, dəmir yolları, enerji infrastrukturu və rəqəmsal bağlantılar regionun strateji əhəmiyyətini yüksəldir. Kakachia hesab edir ki, Avropa İttifaqı Gürcüstanla münasibətlərdə yalnız siyasi şərtləndirmə mexanizminə arxalanmamalı, eyni zamanda regiondakı uzunmüddətli strateji maraqlarını nəzərə alan ardıcıl əməkdaşlıq siyasəti həyata keçirməlidir. Bu yanaşma Avropanın demokratik prinsiplərdən geri çəkilməsi anlamına gəlmir; əksinə, Gürcüstan cəmiyyətinin Avropa yönümlü seçimini qorumaq üçün iqtisadi, təhsil, institusional və vətəndaş cəmiyyəti əlaqələrinin davam etdirilməsini nəzərdə tutur. Beləliklə, Avropa İttifaqı üçün əsas məsələ Gürcüstan hökumətinin siyasətinə münasibətdə prinsipial mövqe saxlamaqla yanaşı, ölkənin geosiyasi əhəmiyyətini və cəmiyyətin Avropa ilə əlaqələrini itirməməkdir.

Gürcüstanın Avropaya inteqrasiyasıyla bağlı vəziyyət digər namizəd ölkələrlə müqayisədə də diqqətəlayiqdir. Noyabrın 4-də açıqlanmış Avropa Komissiyasının Genişlənmə Paketi Monteneqro, Albaniya, Moldova və Ukraynanın üzvlük danışıqlarında irəliləyiş əldə etdiyini göstərir. Komissiya bu ölkələr üçün növbəti mərhələləri müəyyənləşdirən indikativ yol xəritələri təqdim edib. Monteneqro danışıqlarda ən irəli mərhələdə olan namizəd kimi qiymətləndirilir; Albaniya bütün danışıqlar klasterlərini açıb və qarşısına 2027-ci ilə qədər danışıqları başa çatdırmaq məqsədi qoyub. Moldova və Ukrayna üçün də növbəti mərhələlər üzrə konkret hədəflər müəyyən edilib. Gürcüstan isə eyni hesabatda üzvlük prosesinin faktiki dayandığı ölkə kimi təqdim olunur. Bu müqayisə mühüm siyasi nəticə yaradır: Avropa İttifaqının genişlənmə siyasəti tamamilə dayanmayıb, əksinə, islahatlar həyata keçirən ölkə üçün sürətlənir. Gürcüstanın geridə qalması coğrafi və ya tarixi səbəblərlə deyil, əsasən daxili siyasi və institusional problemlərlə əlaqələndirilir.

Gürcüstanın gələcək istiqamətini müəyyən edəcək amillərdən biri də ölkənin konstitusion öhdəlikləridir. Ölkə Konstitusiyasının 78-ci maddəsi konstitusiya orqanlarına öz səlahiyyətləri çərçivəsində ölkənin Avropa İttifaqı və Şimali Atlantika Müqaviləsi Təşkilatına tam inteqrasiyasını təmin etmək üçün bütün zəruri tədbirləri görmək öhdəliyi qoyur. Bu müddəa Avropa və Avroatlantik inteqrasiyanın yalnız hökumətin siyasi bəyanatı olmadığını, konstitusion səviyyədə təsbit edilmiş dövlət istiqaməti olduğunu göstərir. Buna görə hazırkı siyasi böhranın hüquqi tərəfi də var: hökumətin həyata keçirdiyi siyasətin Konstitusiyanın 78-ci maddəsində nəzərdə tutulan məqsədlərlə nə dərəcədə uzlaşdığı Gürcüstanın daxili siyasi və hüquqi müzakirələrinin əsas mövzularından biridir. Bununla belə həmin maddənin mövcudluğu Gürcüstanın avtomatik olaraq Aİ-yə üzv olacağı anlamına gəlmir. Üzvlük üçün Avropa İttifaqı haqqında Müqavilənin 49-cu maddəsində nəzərdə tutulmuş prosedur və siyasi, iqtisadi, hüquqi meyarlar yerinə yetirilməlidir. Hazırkı vəziyyətdə Gürcüstanın qarşısında üç mümkün inkişaf istiqaməti görünür. Birinci ssenari hökumətin Avropa Komissiyasının tələblərini nəzərə alaraq siyasi və hüquqi kursunda dəyişiklik etməsi, mübahisəli qanunvericilik aktlarına yenidən baxması, siyasi plüralizmi və vətəndaş cəmiyyətinin fəaliyyətini təmin edən islahatlara başlamasıdır. Belə bir addım Aİ ilə siyasi dialoqun bərpasına və üzvlük prosesinin yenidən hərəkətə gəlməsinə imkan yarada bilər. İkinci ssenari mövcud siyasi kursun davam etməsi və Brüsselin məhdudlaşdırıcı tədbirləri genişləndirməsidir. Bu halda Gürcüstanın namizəd statusu formal olaraq qalmaqla yanaşı, ölkənin Avropa institutları ilə iqtisadi və siyasi inteqrasiyası daha da zəifləyə bilər. Üçüncü ssenari isə uzunmüddətli siyasi qeyri-müəyyənlikdir: hökumət Avropa İttifaqına üzvlük niyyətini bəyan etməkdə qalar, lakin üzvlük meyarlarının yerinə yetirilməsi üçün zəruri islahatlar həyata keçirilməz. Belə vəziyyət Gürcüstanın Avropa perspektivini illərlə uzada və ölkənin regiondakı strateji mövqeyinə mənfi təsir göstərə bilər.

2027-ci ilin yanvarında Aİ xarici işlər nazirlərinin Gürcüstanla bağlı əlavə tədbirləri müzakirə etməsi yaxın dövrün mühüm siyasi hadisələrindən biri olacaq. Bununla yanaşı, müxalifət partiyalarının qadağan olunmasıyla bağlı Konstitusiya Məhkəməsinin 2027-ci ilin iyununa qədər gözlənən qərarı da ölkənin siyasi sisteminin gələcəyi baxımından həlledici əhəmiyyət daşıya bilər. Bu iki proses Gürcüstanın Avropaya inteqrasiyasının yalnız xarici siyasət məsələsi olmadığını, daxili siyasi institutların gələcək quruluşundan birbaşa asılı olduğunu göstərir. Nəticə etibarilə Gürcüstanın Avropa dilemmasını sadəcə "Rusiya, yoxsa Avropa?" sualı ilə məhdudlaşdırmaq düzgün olmaz. Ölkənin qarşısında daha mürəkkəb seçim dayanır: Avropa İttifaqına üzvlük məqsədi hansı siyasi idarəçilik modeli, hansı hüquqi təminatlar və hansı demokratik institutlar əsasında həyata keçiriləcək? Brüsselin mövqeyinə görə, üzvlük prosesi yalnız bəyanatlarla yox, hüququn aliliyi, müstəqil məhkəmə, azad media, siyasi rəqabət və fundamental hüquqlar sahəsində real nəticələrlə irəliləyə bilər. Tbilisi isə öz növbəsində suverenlik və milli maraqlar arqumentlərini ön plana çəkərək Avropa İttifaqının tələblərinin daxili siyasətə müdaxilə xarakteri daşıdığını iddia edir. Bu iki mövqenin yaxınlaşması üçün ilk növbədə siyasi dialoqun bərpası, qarşılıqlı etimadın yaradılması və mübahisəli qanunvericilik məsələlərinin hüquqi müstəvidə həlli vacibdir.

Gürcüstanın gələcəyini yalnız Moskvanın təzyiqi və ya Brüsselin qərarları müəyyən etməyəcək. Həlledici amillərdən biri ölkənin daxilində demokratik institutların hansı səviyyədə qorunacağı, siyasi rəqabətə nə dərəcədə imkan veriləcəyi və cəmiyyətin strateji seçiminin dövlət siyasətində necə əks olunacağıdır. Gürcüstan Avropa İttifaqına üzvlük perspektivini hələ hüquqi baxımdan itirməyib, lakin 2026-cı ilin noyabrına olan vəziyyət göstərir ki, namizəd statusuyla real üzvlük prosesi arasında ciddi məsafə yaranıb. Avropa Komissiyasının son hesabatı, Avropa Parlamentinin qətnamələri və beynəlxalq ekspertlərin təhlilləri bu məsafənin yalnız zamanın keçməsiylə aradan qalxmayacağını göstərir. Bunun üçün siyasi iradə, institusional islahatlar və demokratik prinsiplərə real qayıdış lazımdır. Gürcüstanın Avropa yolu coğrafi baxımdan açıq qalır, lakin onun siyasi istiqaməti artıq Tbilisinin qəbul edəcəyi qərarlardan asılıdır. Bu gün ölkənin qarşısında duran əsas sual Avropanın Gürcüstanı qəbul edib-etməyəcəyi deyil, Gürcüstanın Avropa İttifaqına üzvlüyün tələb etdiyi siyasi və hüquqi standartlara qayıtmağa hazır olub-olmayacağıdır.



Kəramət QƏNBƏROV
Beynəlxalq hüquq üzrə ekspert

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



Şənbə üçün nəzm









Taleh Mansur

Nə vaxt yadına düşsəm,
Durum yadında qalım,
Birdən oduna düşsəm,
Yanım yanında qalım.

Bizim qapını tapım,
Cəftəsinə bal çəkim.
Gəzim qapını tapım,
Döyməyim, sığal çəkim.

Əllərimdə əl bişir,
Su ver, közümə səpim.
Çiy yuxumu al, bişir,
Gətir gözümə təpim.

Nə vaxt gəlsən, bu yana,
Gətir gəzdiyim “yox”u
Ruhumda qurum xana,
Ora xalından toxu.
Göydən məhəbbət yağır,
Buludlar belə bilmir.
Ayır saçından cığır,
Əllərim gələ bilmir.

Sən məndən gəlmək istə,
Həsrət çək, incə-incə.
Ayaqlarım “baş üstə”,
Desinlər başdan öncə.

Nə vaxt səsin gələcək,
Susacaq qürur səsim
Əsəcək soyuq külək,
Titrəyəcək gur səsim

Borandı, qardı alnım,
Donacaq yalın yazım.
Unutma, dardı alnım,
Qısadı alın yazım.

***

Yanaqlarım yorulanda,
Gözümdən yaş daşımışam.
Könlüm eşqə sarılanda,
Qalıb çaşbaş, daşımışam

Yolum düşüb “div elinə”,
Bəxtim keçib div əlinə.
Taleyimin əvvəlinə,
Bir dünya “kaş” daşımışam.

Göy üzündən qopan dərdi,
Gəzib məni tapan dərdi,
Bu dördnala çapan dərdi,
Yavaş-yavaş daşımışam.

Ocaq çatıb dincəlmişəm.
Közə çatıb, dincəlmişəm.
Sanma, yatıb, dincəlmişəm,
Yuxumda daş daşımışam .

İsinmişəm qışa baxıb,
Hey dolmuşam boşa baxıb.
Göz altından qaşa baxıb,
Göz üstə qaş daşımışam.

Qaranlığın başdı şamı,
Başım dəyən “baş daşımı”?
Kürəyimdə baş daşımı,
Çiynimdə baş daşımışam.

Mən dünyaya göz açan gün
Bu dünyaya mən dan yeri ,
Söküləndə gəlmişəm.
Tanrının dərgahından
bu bəxtəvər dünyanın,
Qapqara saçlarına,

İşıq rəngli lələ-cəvahir ,
töküləndə gəlmişəm.
Mən dünyaya göz açan gün,
Günəş sərxoş olub,
yatıb yuxuya qalıb.
Ağlamışam oyanıb.

Çılpaq ruhum Tanrının fırçasıyla ,
Cismim ilə boyanıb
Bəlkə ona görədi
Bütün şeirlərimin misrası bəndi,
Qurulur dan yeri,
Sökülən zaman.
Göylərdən ulduzlar,
Tökülən zaman

Mən dünyaya göz açan gün
Hikkəsindən bir oğulsuz-sonsuz qadın,
Allaha qarğış eyləyir:
“Gözün kor olsun”- deyir
Anam o gündən bu günə.
O qarğışı yuyub-sərir,

Allaha alğış eyləyir,
Min dəfə alğış eyləyir
Məni bağışla, Allah
Məni bağışla, vallah
Alğış duadan öncə,
Bir qara qarğış deyilib
Məndən ötrü ünvanına.

Nə bilən var, nə inanan,
Bu dünyaya gələn gündən qəribəm
Bilən yoxdur, mənim əsl vətənim,
Anamın öz bətnidir.
Məni şair, məndən şeir xəlq eliyən,
Anamın söz bətnidir.

Mən dünyaya göz açan gün
Aldatmışam insanları,
Həkimləri, loğmanları,
Ölçənləri, mizanları

Çəkib məni bir tərəzi,
Dörd kiloqram gəlmişəm.
Yanılıblar...
Mən əslində dörd kiloqram olmamışam,
Mən bir az od olmuşam ,
Bir az su,
Bir az hava,
Bir az torpaq,
Vəssalam.
Dünyaya göz açmışam,

***

Süzülür nəğmələr, qulaqda qalmır,
Gah saza qoşulur, gah tarda gedir...
Ağacdan ayrılan budaqda qalmır,
Almada, heyvada, ya narda gedir...

Səssiz yazılanlar səsli ürəkdi.
Sözlərin əlası, əsli ürəkdi.
İnsanın vəfalı fəsli ürəkdi,
Payız da ötüşür, bahar da gedir...

Ağrıdır ağlımı bir dəli sancı,
Tanımır Allahı, yoxdu inancı.
Görən, kim uydurub xərci, qazancı?
Bazarın gəliri bazarda gedir...

Tapıldım indicə, itdim indicə,
Ah, nələr, ah, nələr etdim indicə.
Başlamaz deyirdin, bitdim indicə,
Bu gəlməz dediyin, gör, harda gedir...

Çiynimin yükündən damır qollarım,
Sirrini heç kimə demir qollarım.
Dəmir yollarımdı dəmir qollarım,
Düşüncəm söz adlı qatarda gedir...

Damarda qaynayan qan ilıq ola,
Göz yaşı tökəsən, göz balıq ola.
Qovuşmaq varmı ki, ayrılıq ola?!
Kim yardan ayrılır, o, yarda gedir...

***

Səninləyəm, ay dil altda zəhər
Gəzdirən adam,
Özündən özünü
bezdirən adam...
Dil altında zəhər-zəqqum
gəzdirənlər
İlan olur axırda.
Ağıl başda olmayanda,

Başda ağıl olmayanda
həqiqət də yalan olur axırda.
Dil altında zəhər özü,
dil üstündə zəhər sözü
Görünsə də,
Düşüncəmin
aydan-arı sudan-duru
fikirləri
yalın gözlə görünmür.

Quşqanadlı xəyallarım
arzuların səmasında qanad çalır,
İlan kimi sürünmür.
Düşüncəmin
gicgahına bir fikir sıx,
Can üstədi, qoy,
ölməsin mənalı söz...

İşıq düşür mənim günəş ürəyimdən
düşüncəmə,
Düşüncəmin ağ vərəqli
kölgəsində şeir bitir.
Bax beləcə yaşayıram

Misra-misra,
sətir-sətir...
Gördüyündən soruş desin,
görünməyən
düşüncəmdə nələr var:
Düşüncəmdə doğulmaq var,

Yaşatmaq var,
yaşamaq var
ölüm yoxdu.
Ocağımda
Odum da var,
Közüm də var,
külüm yoxdu.

Allah verən düşüncəylə düşünürəm:
Eşq sevginin, eşq sevincin,
Bu kədər də boz ahındı,
al ahındı...

Nəyim varsa, Allahındı;
Dil-dil ötən ağrılarım
lal ahındı.
Düşünürəm:
Bəs özümün nəyim var?

Cavabını bilmədiyim
bu sual da
Allahındı.
Hər şey, hər şey
Allahındı,
O Allah da
elə mənim Allahımdı...

Öyrətmək üçün öyrənmək

Bir mədəniyyətdir.



Məqsəd Nur

Ənənəyə çevrilməlidir. Uşaqlara yazı yazaraq düşünməyi, mütaliəni vərdişə çevirməyi öyrətmək istəyiriksə, özümüz öyrənməsək, olmayacaq.

Yenə “Ədəbiyyat paytaxtı” Dublin təcrübəsinə baxmaq məcburiyyətindəyik. Hər il keçirilən Dublin Kitab Festivalı il boyu fəaliyyətini dayandırmır, interaktivliyini daim qoruyub-saxlaya bilir. Axı festivala yığışıb kitab təqdim etməklə iş bitmir. Onu satmaq, oxutdurmaq üçün daim hərəkətdə olmalı, dinamik, funksional alətlərdən istifadə edilməli, beləcə, növbəti festivala hazırlaşmalısan. Həm də gələcəyin oxucusunu yetişdirməlisən. Dublində də belə etməyə çalışırlar.

Festival bitsə də, müxtəlif platformalarda öyrədici tədbirlər il boyu davam edir. Valideynlər və uşaqlar birlikdə dəstəklənir.

Məsələn, “Gəlincik” təcrübəsi görüşlərində yalnız 5-8 yaşları arasında uşaqlar iştirak edə bilər. Təbii ki, valideynləri ilə. Onlar İrlandiyanın gəlincik nağıl qəhrəmanları ilə ətraflı tanış olacaq, həmçinin 8 yaşından yuxarı uşaqlar üçün altı kitab müəllifi ilə görüş keçirəcəklər. Məsələ burasındadır ki, İrlandiyada uşaq yazıçıları da janrlar və hətta yaş kateqoriyaları üzrə ixtisaslaşıblar. Qəribədir, yazıçı necə ixtisaslaşa, xüsusilə də, müəyyən edilmiş yaş kateqoriyası üzrə “bölünə” bilər? Yəqin ki, bu qaydaları bizim mühitdə tətbiq etmək çətin olardı. Lakin məsələ çox sadədir. Uşaqları mütaliəyə və gələcək həyata hazırlamaq üçün yaş bölgüləri çox vacibdir, hətta tələbdir. Axı onlar sürətlə böyüyür, dəyişir və “bir də başını qaldırıb görürsən ki”, valideynlərindən də qabağa keçməyə can atırlar. Əlbəttə ki, bu mərhələləri kitabla birlikdə adlamaq olduqca faydalıdır.

Dublin Kitab Festivalı ətrafında fəaliyyət göstərən “Yaradıcılıq stansiyası” (ailəvi rəsm çəkmək, təxəyyülün inkişafı), “Uşaq kitab mübadiləsi” (oxuyub bitirdiyin uşaq kitabını gətirib yeni bir kitabla əvəzləmək), “Öz gölməçəni yarat” (ən kiçik məkanda belə təbiətlə ünsiyyət) və sair bu kimi layihələr bir-birini əvəz edərək balaca oxucuları təkcə kitaba deyil, həm də həyata alışdırır.

Bu yaxınlarda isə Dublindən çox uzaqda olmayan Londonda Buker Uşaq Ədəbiyyatı mükafatı da təsis edilib. Bu, müsabiqənin tarixində bir ilkdir. Sənaye dayana bilməz, gələcəyin uşaqları və onların valideynləri alıcı, istehlakçıdır. Bəs öyrətmək üçün öyrənmək necə?

Bunu Dublində yaxşı bilirlər. London isə sənayenin gələcəyini düşünməlidir...

Soyuq havalar xəstəlikləri də özü ilə gətirir...

Mövsümi viruslardan necə qorunaq?

Payızın son günləri, qışın astanasındayıq. Küçələrdə havanın soyuqluğu hiss olunur, insanlar isti geyimlərə üstünlük verir, qapalı məkanlarda keçirilən vaxt artır. Elə bu dövrdə ətrafımızda tez-tez rastlaşdığımız mənzərə də dəyişir, kiminsə boğazı ağrıyır, kimsə öskürür, digəri isə yüksək hərarətdən şikayətlənir. Məktəblərdə, iş yerlərində, ictimai nəqliyyatda mövsümi xəstəliklərin yayılması daha çox nəzərə çarpır.

İlk növbədə, bir məqamı nəzərə almaq lazımdır - soyuq hava özü virus yaratmır. Lakin payız-qış mövsümündə insanların qapalı məkanlarda daha çox vaxt keçirməsi, otaqların kifayət qədər havalandırılmaması və yoluxmuş şəxslərlə yaxın təmas viruslarının yayılması üçün əlverişli şərait yaradır. Bu aylarda ən çox rast gəlinən xəstəliklər arasında kəskin respirator virus infeksiyaları, mövsümi qrip, rinovirus, adenovirus və respirator-sinsitial virus (RSV) infeksiyaları yer alır.

Bir neçə sadə vərdiş, böyük qorunma

Mövzu barədə “Yeni Azərbaycan”a danışan həkim-infeksionist İbrahim Rəfiyev bildirib ki, mövsümi viruslardan qorunmaq üçün mürəkkəb tədbirlərə ehtiyac yoxdur. Əksər hallarda gündəlik gigiyena qaydalarına düzgün əməl etmək yoluxma ehtimalını azaltmağa kömək edir: “Digər mühüm məsələ xəstə olduğu halda gündəlik həyat ritmini davam etdirməməkdir. Bəzən insanlar yüngül öskürək və boğaz ağrısına əhəmiyyət vermədən işə, məktəbə və digər ictimai məkanlara üz tuturlar. Halbuki bu davranış ətrafdakı insanların, xüsusilə, risk qrupuna daxil olanların yoluxmasına səbəb ola bilər”.

Peyvənd olunmaq...

Həkimin sözlərinə görə, mövsümi xəstəliklərdən qorunma haqqında danışarkən peyvəndlənmənin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır: “Çünki bəzi virus infeksiyalarından qorunmaq üçün ən effektiv profilaktik vasitə məhz vaksinasiyadır. Bu baxımdan ilk növbədə mövsümi qrip peyvəndi diqqət çəkir. Qrip virusları daim dəyişdiyindən peyvəndin tərkibi hər il yenilənir və vaksinasiya hər mövsüm təkrarlanmalıdır. Peyvənd yoluxma ehtimalını azalda, xəstəlik baş verdikdə isə onun ağır keçməsi və ciddi fəsadlarla nəticələnməsi riskini aşağı sala bilər.

Bu il oktyabrın 21-də 2026-2027-ci illərin payız-qış mövsümü üçün ölkəyə qripə qarşı vaksinlər gətirilib. Vaksinasiya kampaniyasına oktyabrın 21-dən başlanılıb. Peyvəndlənmə dövlət tibb müəssisələrində ödənişsiz həyata keçirilir. Xüsusilə səhiyyə işçilərinin, hamilə qadınların və altı aydan yuxarı, xroniki tənəffüs sistemi xəstəlikləri olan şəxslərin qripə qarşı peyvənd olunması tövsiyə edilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da yaşlıları, xroniki xəstəlikləri olanları və beş yaşdan kiçik uşaqları ağır qrip riski yüksək olan qruplar sırasında göstərir”.

Hansı vaksinlər vacibdir?

İnfeksionist qeyd edib ki, bir məqamı unutmaq olmaz, bütün respirator viruslara qarşı vahid peyvənd mövcud deyil: “Məsələn, adi soyuqdəyməyə səbəb olan çoxsaylı virusların hamısından qoruyan ümumi vaksin yoxdur. Respirator-sinsitial viruslara qarşı vaksinasiya və profilaktik vasitələr müəyyən ölkələrdə, konkret yaş və risk qrupları üçün tətbiq olunur. Onların Azərbaycanda mövcudluğu və tətbiq imkanları barədə müvafiq tibb müəssisəsindən məlumat almaq lazımdır.

Peyvənd mövzusunda uşaqların milli immunizasiya təqviminə uyğun vaksinasiyası da diqqətdən kənarda qalmamalıdır. Azərbaycanda uşaqlara pnevmokok infeksiyasına qarşı peyvənd 2, 4 və 6 aylıqda tətbiq edilir. Həmçinin difteriya, göyöskürək, tetanus, hepatit B, B tipli hemofil infeksiya və poliomielitə qarşı kombinə edilmiş peyvəndlər təqvimə daxildir.

Pnevmokok infeksiyası pnevmoniya, meningit və digər ağır xəstəliklərə səbəb ola bildiyindən uşaqların vaxtında peyvəndlənməsi xüsusi əhəmiyyət daşıyır. Valideynlər övladlarının peyvənd kartını yoxlamalı, gecikmiş dozalar varsa, ailə həkimi ilə məsləhətləşməlidirlər”.

İmmunitetin güclənməsində qidalanmanın rolu

İ.Rəfiyev bildirib ki, mövsümi xəstəliklərdən qorunmaq üçün yalnız gigiyena və



peyvəndlənmə kifayət etmir. Orqanizmin normal fəaliyyətini təmin edən düzgün qidalanma da mühüm rol oynayır: “Xüsusilə payız-qış aylarında gündəlik qida rasionunda meyvə və tərəvəzlərin, zülalla zəngin məhsulların, süd məhsullarının, paxlalıların və tam taxılların olması vacibdir. Portağal, naringi, limon, kivi, alma, nar, kök, çuğundur, kələm və göyərti kimi məhsullar vitamin və minerallarla zəngindir”.

İnfeksionist qeyd edib ki, bəzən insanlar immuniteti gücləndirmək məqsədilə həkim məsləhəti olmadan müxtəlif vitaminlər, qida əlavələri və preparatlar qəbul edirlər. Lakin vitaminlərin normadan artıq qəbulu sağlamlıq üçün faydalı deyil: “Xüsusilə D vitamini, C vitamini və sink preparatları ehtiyac müəyyən edilmədən və mütəxəssis məsləhəti olmadan istifadə edilməməlidir. Unutmaq olmaz ki, heç bir meyvə, çay, bal və ya vitamin preparatı peyvəndi və digər profilaktik tədbirləri əvəz etmir”.

Bu səhv baha başa gələ bilər...

Həkimin sözlərinə görə, mövsümi xəstəliklər zamanı yol verilən ən geniş yayılmış səhvlərdən biri antibiotiklərin həkim təyinatı olmadan qəbul edilməsidir: “İnsanlar bəzən hərarət, öskürək və boğaz ağrısı başlayan kimi antibiotik istifadəsinə üstünlük verirlər. Halbuki antibiotiklər bakterial infeksiyalara qarşı təsirlidir, virusları məhv etmir. Onların lazımsız istifadəsi antibiotiklərə davamlılığın yaranmasına və gələcəkdə bakterial infeksiyaların müalicəsinin çətinləşməsinə səbəb ola bilər. Eyni zamanda hərarəti olan şəxsin özbaşına müxtəlif dərmanları qarışdırması, uşaqlara böyüklər üçün nəzərdə tutulan preparatların verilməsi də təhlükəlidir”.

Yeganə BAYRAMOVA

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4336
Sifariş: 1555
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova